AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№73 (1343), 19 - 25 dekabr 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.

## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanını "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 712-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, H 8, maddə 623; 2015, H 8, maddə 909; 2016, H 7, maddə 1254, H 10, maddə 1645) 2.2-ci bəndindən "31.1-ci, 31.4-cü," sözləri çıxarılsın.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 dekabr 2017-ci il.***

## Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib




Dekabrın 18-də Milli Olimpiya Komitəsində 2017-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin foyesində "IV İslam Həmrəyliyi Oyunları Azərbaycan fotoqraflarının gözü ilə" mövzusunda sərgi ilə tanış oldular.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Ə.Ə.Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Əhəd Əliağa oğlu Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 dekabr 2017-ci il.***

## Azərbaycan Respublikasında idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Gözəl Tahir Abdolbari oğlu

Qayıbov Fərid Fazil oğlu

Məmmədov Elxan Salhab oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 dekabr 2017-ci il.***

## Olimpizm

### Pxenyan-2018-in açılış günü ən şaxtalı hava olacaq

Pxenyan-2018 Qış Olimpiya Oyunlarının açılışı günündə, yəni fevralın 9-da tarixdə ən şaxtalı hava proqnozlaşdırılır.

Sinoptiklərin sözlərinə görə, həmin gün tepmometr havanın mənfi 14 dərəcə olduğunu göstərəcək. Bu da rekord deməkdir. Hələlik Olimpiya Oyunlarının açılış mərasimi tarixində ən şaxtalı hava 1994-cü ildə Lillihamerdə qeydə alınıb - mənfi 11 dərəcə.

Bu xəbər Pxenyan-2018 Təşkilat Komitəsini həyəcanlandırıb. Çünki inşasına 58 milyon dollar vəsait xərclənən Olimpiya stadionu qapalı deyil, üstüaçıq inşa edilib.

### BOK işçi qrup yaradıb

Beynəlxalq Olimpiya Komitəsi (BOK) İdmanda Korrupsiyaya Qarşı Beynəlxalq Əməkdaşlıq Təşkilatı (İKQBƏT) ilə birlikdə korrupsiyaya qarşı üç işçi qrup yaradacaq.

İşçi qrupun vəzifəsi idman tədbirləri və infrastrukturu ilə bağlı hər hansı rüşvət hallarının qarşısının alınması, eləcə də konfliktlərin nizama salınmasını təmin etməkdir.

BOK-un Etika Komissiyasının sədri Pakerett Jirar Zappelli korrupsiya ilə mübarizə aparmaq üçün işçi qrupun yaradılmasını məqsədəuyğun hesab edib.

Məlumat üçün bildirək ki, hər bir işçi qrup öz layihə və təkliflərini İKQBƏT-in gələn ilin iyun ayında keçiriləcək iclasında təqdim etməlidirlər. İKQBƏT bu ilin fevralında yaradılıb.

## Azərbaycan Respublikasında idmanın inkişafında xidmətləri olan bir qrup şəxsə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycanda idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar bədən tərbiyəsi və idman xadimi"**
Axundzadə Ağayar Əbdüləzim oğlu
Babayev Nağı Məcidoviç
Davudov Vaqif Cəlil oğlu
Əhmədov Kamal Məhəmməd oğlu
Əliyev Qərib Tələt oğlu
Hüseynov Firat Alışan oğlu
Meftahəddinova Zemfira Əli qızı

**"Əməkdar jurnalist"**
Şirəliyev Aslan Bəybala oğlu

**"Əməkdar həkim"**
İsgəndərov Kamil Vəliyullah oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 dekabr 2017-ci il.***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

## İdmanda uğur qazanan iqtisadçılar

Səh. 5

## Anons

*Millimizə yeni məşqçi cəlb olunub* Səh. 3

*Ölkə kubokunun birinci mərhələsi başa çatıb* Səh. 3

*"Peşəkar idmanda yalnız iradəli insanlar qalırlar"* Səh. 4

*Jurnalistlər ilin ən yaxşılarını seçdilər* Səh. 6

*Təşkilat Komitəsinin ilk iclası keçirilib* Səh. 6

*Rəqəmlərin sehrinə düşənlər, fərqlənən keniyalılar, sürətli toplar və əlamətlərə inanan futbolçular* Səh. 7

# Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

*(əvvəli 1-ci səhifədə)*

**Prezident İlham Əliyevin çıxışı**

-Əziz dostlar, 2017-ci il başa çatır. Bu il Azərbaycan idmançıları xalqımızı böyük qələbələrlə sevindirmişlər. Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir. Hər il id-





manççılarımız müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər, medallar qazanırlar. Bu il də medalların sayı kifayət qədər çoxdur. Azərbaycan idmançıları bu il bütün beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Bu, onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar.

Bu il bir çox idman qələbələrimiz olubdur. Onların arasında bir neçə hadisəni bu gün qeyd etmək istərdim. Bizim şahmatçılarımız üçüncü dəfə Avropa çempionu olmuşlar. Bu, böyük qələbədir, böyük nəticədir. Bu nəticə onu göstərir ki, bizim idmançılarımız həm döyüş, həm komanda, həm intellektual idman növlərində ən yüksək pilləyə qalxırlar. Şahmat üzrə Avropa çempionatında birinci olmaq doğrudan da böyük nailiyyətdir, böyük qələbədir.

Bu il bizim iki idmançımız - Məmmədrəsul Məcidov və Hacı Əliyev boks və sərbəst güləş üzrə üçqat dünya çempionu olmuşlar. Bu da tarixi qələbədir. Olimpiya idman növündə üçqat dünya çempionu olmaq böyük uğurdur, böyük qələbədir.

Azərbaycan idman məktəbinin yetirməsi - azərbaycanlı idmançı Ramil Quliyev bu il ilk dəfə olaraq yüngül atletika üzrə dünya çempionu olmuşdur. Bu da tarixi qələbədir.

Komanda idman növlərində də idmançılarımız çox yaxşı nəticələr göstərmişlər. Bakıda keçirilmiş voleybol üzrə qadınlar arasında Avropa çempionatında voleybolçu qızlarımız dördüncü yerə layiq görüldülər. Onlar hətta medal qazanmağa da çox yaxın idilər. Yarımfinal görüşündə qələbəyə çox yaxın idilər. Ancaq hesab edirəm ki, Avropada voleybol kimi çox məşhur idman növündə dördüncü olmaq da böyük nailiyyətdir. Əlbəttə ki, bizim futbolçularımız - hamımız üçün doğma olan "Qarabağ" komandası tarixdə ilk dəfə olaraq Çempionlar Liqasının final mərhələsində iştirak etmişdir. Bu, Azərbaycan futbolunun böyük qələbəsidir və komanda ölkəmizi, xalqımızı, Qarabağı bu oyunlarda ləyaqətlə təmsil etmişdir.

Mən xatırlayıram, biz Olimpiya Stadionunu inşa edərkən bəzi fikirlər səslənirdi ki, bu qədər böyük arena bəlkə də bizə lazım deyil, Tofiq Bəhramov adına 30 minlik stadionumuz, digər stadionlarımız var və bu arena heç vaxt dolmayacaq. Ancaq bu gün həyat göstərir ki, "Qarabağ" futbol klubunun oyunlarına 60 mindən çox tamaşaçı gəlmişdi. Bu gün Bakı Olimpiya Stadionu dünya miqyasında seçilən Olimpiya stadionlarından biridir. Təsadüfi deyil ki, UEFA Avropa Liqasının final görüşü də bir neçə ildən sonra bu stadionda keçiriləcək. Eyni zamanda, futbol üzə Avropa çempionatının bir neçə oyunu da bu stadionda keçiriləcək.

Bu il Azərbaycan Gimnastika Federasiyasının nümayəndəsi Fərid Qayıbov Avropa Gimnastika İttifaqının prezidenti seçilmişdir. Bu da tarixi nəticədir. Çünki bu günə qədər heç vaxt Azərbaycan nümayəndəsi Avropa idman federasiyasına rəhbərlik etməmişdir. Bu da son illər ərzində Azərbaycanda gimnastika idman növünün, ümumiyyətlə, idmanın inkişafının təzahürüdür. Ölkəmizdə keçirilmiş bir çox beynəlxalq yarışlar artıq Azərbaycanı bütün dünya idman ictimaiyyətinə çox dinamik inkişaf edən, müasir, güclü dövlət kimi təqdim etdi və bunun nəticəsidir ki, bizim nümayəndələrimiz indi Avropanın idman ailəsində də yüksək vəzifələr tuturlar.

Əlbəttə ki, bu il ən böyük qələbəmiz Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri olmuşdur. Bu Oyunlar, sözün əsl mənasında, böyük idman, dostluq, qardaşlıq bayramı idi. Azərbaycan bütün müsəlman ölkələrinin aparıcı idmançılarını qəbul etdi, əminəm ki, onlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar. Burada keçirilən Oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dünya miqyasında böyük idman dövlətidir. 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə Azərbaycan komandası layiq görüldü. Bu Oyunlarda üç mindən çox idmançı, minlərlə mütəxəssis, qonaq iştirak edib və Azərbaycan həqiqətləri ilə tanış oldular.

Mən sadəcə olaraq bir neçə önəmli idman hadisənin diqqətinizə çatdırdım. Ancaq qələbələrin sayı çox olubdur. Qeyd etdiyim kimi, 851 medal qazanmışıq və sevindirici hal ondan ibarətdir ki, həm döyüş, həm komanda, həm də intellektual idman növlərində bizim idmançılarımız çempiondurlar, qalibdirlər.

Bakıda keçirilmiş mötəbər beynəlxalq yarışlar bütün dünyanın diqqətini cəlb edir. Onu da qeyd etməliyəm ki, bu il ikinci dəfə olaraq Bakıda "Formula-1" yarışı keçirilmişdir. Ümumi rəyə görə, - bu, artıq xarici mətbuatda da qeyd olunub, - 20 yarışın arasında bu yarışlar ilin ən yaxşı yarışı hesab olunub. Yəni, bu da bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur. Bir çox "Formula-1" yarışlarından fərqli olaraq bizim yarışımız şəhər yarışıdır və bu, eyni zamanda, bütün dünyaya - yarım milyardlıq tamaşaçı auditoriyasına Bakı şəhərinin gözəlliyini nümayiş etdirir. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 24 faiz və 2017-ci ilin 11 ayında isə daha 20 faiz artmışdır. Əlbəttə, bunun səbəbləri təkcə "Formula-1" yarışı deyil, Azərbaycana gedən inkişaf, sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, müasir infrastruktur, şəhərimizin gözəlliyi, müasir otellər, viza rejiminin sadələşdirilməsidir. Eyni zamanda, hesab edirəm ki, "Formula-1" ölkəmizin təbliğatı üçün nadir bir yarışdır. Yəni, beş yüz milyon tamaşaçı bu yarışı müntəzəm olaraq izləyir və bir daha demək istəyirəm ki, Bakının gözəlliyini, Azərbaycanın qüdrətini görür.

Beləliklə, təkcə sadaladığım bu hadisələr, bu qələbələr deməyə əsas verir ki, Azərbaycan, sözün əsl mənasında, güclü idman dövlətidir. Əminəm ki, idmançılarımız bundan sonra da bizi qələbələrlə sevindirəcəklər. Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir, dövlət siyasəti aparılır, idmanın maddi-texniki bazası möhkəmləndirilir. Bakının idman qurğuları dünyanın ən yüksək standartlarına cavab verir. Bölgələrdə də Olimpiya İdman mərkəzlərinin tikintisi davam etdirilir. Bu il Abşeron və Ağcabədi rayonlarında iki gözəl Olimpiya İdman Mərkəzi yaradılmışdır. Gələn il dövlət büdcəsində bölgələrdə üç mərkəzin tikintisi nəzərdə tutulub. Onlardan biri istifadəyə veriləcək, ikisində isə tikinti gedəcək. Ondan sonrakı illərdə də biz bu siyasəti davam etdirəcəyik. Bu günə qədər bölgələrdə 43 Olimpiya İdman mərkəzi yaradılmışdır ki, bunlar gənclər, idmançılar, rayon sakinləri üçün çox gözəl imkanlar yaradır.

Əlbəttə, bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Əminəm ki, idmançılarımız bizi beynəlxalq yarışlarda bundan sonra da sevindirəcəklər. Bütün bu uğurların səbəbləri aydındır. İdmana dövlət dəstəyi, idmançılarımıza qayğı göstərilir. İdmanla məşğul olan bütün qurumlar - Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir nöqtəyə vurur. Yəni, bizim məqsədimiz Azərbaycanda idmanın inkişaf etdirilməsidir, Azərbaycanın dünyada güclü idman dövləti kimi tanıtdırılmasıdır və idmanın kütləviliyinin təmin olunmasıdır. Regional Olimpiya mərkəzlərinin tikintisinin səbəbi də məhz budur ki, idman kütləvi xarakter alsın.

Mən hər zaman idmançılarla görüşəndə qeyd edirəm ki, hər bir insan idmanla məşğul olmalıdır. Fiziki sağlamlıq hər bir insan üçün çox önəmlidir. Biz son illər ərzində bu istiqamətdə bir çox vəzifələri icra etdik. Bütün bölgələrdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilmişdir. Dövlət tərəfindən təşkil olunan dispanzerizasiya, müayinədənkeçmə işləri aparılır. Hər il beş milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir. Ekoloji vəziyyət yaxşılaşır, təmiz içməli su layihələrinin icrası geniş vüsət almışdır. Əlbəttə ki, fiziki hərəkət sağlamlıq üçün əsas amillərdən biridir. İdmanın kütləviliyi idman nəticələri əldə etmək üçün yox, sadəcə olaraq, ona görə vacibdir ki, hər bir insan özünü yaxşı hiss etsin.

Mən şadam ki, gənc idmançılarımız da bizi qələbələrlə sevindirirlər. Yeniyetmə, uşaq idmanı olmadan idman uğurlarından danışmaq mümkün deyil. Gənc nəsil də yetişir, artıq yarışlara çıxır, qələbələr qazanır və beləliklə, idman uğurlarımızın ardıcıllığı təmin olunur. Əgər biz iştirak etdiyimiz bütün yay Olimpiya oyunlarının nəticələrinə fikir versək görərik ki, hər dəfə daha böyük sayda medallar qazanırıq. Yəni, idmançıların hazırlığı, gənclərin, yeniyetmələrin idman bölmələrinə gəlmələri bu nəticəni təmin edir. Son Rio Yay Olimpiya Oyunlarında Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü yerə qalxmışdır. Bu, tarixi qələbədir. Bu qələbəni bir neçə il bundan əvvəl təsəvvür belə etmək mümkün deyildi. Bu qələbəni biz cəmi 25 il ərzində qazanmışıq. Yəni, müstəqilliyimizin 25 illiyinə təsadüf edən Rio Olimpiya Oyunlarında biz belə böyük qələbəni qazanmışıq və müstəqilliyimizə bunun çox böyük töhfəsi olmuşdur. Azərbaycan xalqı bir daha bütün dünyaya göstərdi ki, Azərbaycanda idman yüksək səviyyədədir. Əgər idman nəticələrinə fikir versək görərik ki, əksər hallarda idman ancaq inkişaf etmiş ölkələrdə sürətlə inkişaf edir. Çünki idmanın inkişafı üçün böyük vəsait lazımdır.

Ona görə idmanın inkişafı inkişafımızın ümumi kontekstində mühüm yer tutur. Azərbaycan hər bir istiqamət üzrə son illər ərzində uğurlu inkişaf yolu keçmişdir. Güclü iqtisadi imkanlarımız, beynəlxalq mövqelərimizin gücləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın çox hörmətli ölkə kimi qəbul edilməsi, əlbəttə ki, bizim ümumi uğurlarımıza şərait yaradır. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılar cəmiyyətdə böyük hörmətə malikdirlər. Onu da qeyd etmək istəyirəm ki, idmançılarımızın mütləq əksəriyyəti, xüsusilə bizim tanınmış idmançılarımız məişətdə də gənclər üçün nümunədir. İdmançılarımızın qələbələri və dövlət tərəfindən onların mükafatlandırılması uşaq, yeniyetmə, gənc idmançılarda da ruh yüksəkliyi yaradır. Onlar da görkəmli çempionlar kimi olmaq, böyük uğurlar qazanmaq, öz bayrağını qaldırmaq istəyirlər və istəyirlər ki, xalq onları tanısın və onlara hörmət etsin.

Ona görə bu gün idmana sadəcə olaraq bir sahə kimi baxmaq mümkün deyil. İdman hər bir ölkənin ictimai həyatında çox böyük rol oynayır. Təsadüfi deyil ki, ölkələr çalışırlar beynəlxalq yarışlarda, dünya çempionatlarında, xüsusilə Olimpiya oyunlarında daha yüksək yer tutsunlar. Çünki bu, ölkələrə daha böyük şöhrət gətirir. Əgər İslam Həmrəyliyi Oyunlarının tarixçəsinə nəzər salsaq görərik ki, nə qədər gərgin mübarizə getmişdir. Eyni zamanda, Avropa Oyunlarında da gərgin mübarizə getmişdir. Əlbəttə ki, bu iki mötəbər yarışda birinci, ikinci yerləri tutmaq bizim tarixi qələbəmizdir.

İdmanın inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır. Bu il biz, eyni zamanda, Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd etdik. Bu tədbirdə də mən öz fikirlərimi bildirdim. Bundan sonra da Azərbaycan dövləti idmançılara öz qayğısını əsirgəməyəcək, idmanın inkişafı üçün nə lazımdırsa biz onu da edəcəyik. İdmançılara isə yeni-yeni qələbələr, yeni uğurlar arzulayıram.

Mən bu fürsətdən istifadə edərək, - biz hər il ilin sonunda görüşürük, - bütün idmançıları qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etmək istəyirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

Sonra 2017-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Ağayar Axundzadəyə, Zemfira Meftexetdinovaya, Nağı Babayevə, Firat Hüseynova, Vaqif Davudova, Qərib Əliyevə və Kamal Əhmədova "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi", Aslan Şirəliyevə "Əməkdar jurnalist", Kamil İsgəndərova "Əməkdar həkim" fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev Elxan Məmmədova, Tahir Gözələ və Fərid Qayıbova Azərbaycan Respublikası Prezidentinin fəxri diplomunu təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xüsusi xidmətləri olan Əhəd Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu.







Tədbirdə, həmçinin Azər Həsənov, Namiq Əsgərov, Güloğlan Cabbarov, Xəyal Əhmədov, Faiq Həsənov, Rəsul Məhəmmədov Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2017-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar İncəsənət Xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim etdi.



Dekabrın 15-də Milli Olimpiya Komitəsində (MOK) "İslam həmrəyliyi və ədalətli oyunlar" mövzusunda konfrans və Ədalətli Oyunlar Komissiyasının mükafatlarının təqdim edilməsi mərasimi keçirilib.

# Ədalətli Oyunlar Komissiyası qalibləri mükafatlandırıb

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK-un baş katibi Ağacan Abiyev, MOK baş katibinin müavini Azər Əliyev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Olimpiya çempionları və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb. Bu il Bakıda IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıran vitse-prezident yola salmağa hazırlaşdığımız 2017-ci ilin ölkə idmanı üçün uğurlu olduğunu qeyd edib. Çingiz Hüseynzadə bu il iki idmançımızın üçqat dünya çempionu adını qazandığını və Azərbaycanın IV İslam Həmrəyliyi Oyunlarında komanda hesabında birinci yeri tutmasını ən mühüm nailiyyətlər kimi qiymətləndirib.



MOK-un vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev "İslam həmrəyliyi və ədalətli oyunlar, Azərbaycanda ədalətli oyunlar hərəkatının yaranma tarixi, təbliği və inkişafı" mövzusunda məruzə ilə çıxış edib. Xəzər İsayev məruzəsində ölkəmizdə ədalətli oyunlar hərəkatının inkişafından, bu istiqamətdə həyata keçirilən layihələrdən və ölkə idmanında qazanılan uğurlardan danışıb.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, idmançılarımızın beynəlxalq arenada ölkəmizi ləyaqətlə təmsil etdiklərini qeyd edib. İsmayıl İsmayılov beynəlxalq idman qurumlarının etimad göstərərək irimiqyaslı yarışların təşkilini ölkəmizə həvalə etdiklərindən və qonaqların respublikamızdan xoş təəssüratlarla ayrıldıqlarını da diqqətə çatdırıb.



Sonra mövzu ətrafında məruzələr dinlənilib.

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov "Ədalət prinsipləri İslam aləminin mədəni, irsi dəyərlərinin tərkib hissəsidir", "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev "İslam həmrəyliyi və ədalət prinsiplərinin təbliğində KİV-lərin rolu", Milli Paralimpiya Komitəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Uşaq Paralimpiya Komitəsinin icraçı direktoru Kamal Məmmədov "İslam həmrəyliyi, ədalət prinsipləri, idmana və cəmiyyətə inteqrasiya" və Azərbaycan Ədalətli Oyunlar Komissiyasının baş katibi Səlhət Abbasova "Din və idman bəşəri mədəniyyətin daşıyıcısı kimi" mövzularında məruzələrlə çıxışlar ediblər.

Tədbir çərçivəsində Milli Olimpiya Komitəsinin nəzdində fəaliyyət göstərən Ədalətli Oyunlar Komissiyasının 2017-cı ilin yekunlarına əsasən təsis etdiyi mükafatlar sahiblərinə təqdim olunub.

"Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi" nominasiyasında Azərbaycan Velosiped İdmanı və Güləş federasiyalarının birinci vitse-prezidenti Sahib Ələkbərov mükafatlandırılıb. "Olimpiya dünyası" qəzeti "Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı", FIFA referisi Əlyar Ağayev "Ədalətli oyun prinsiplərinə sadiq hakim", Lyudmila Şubina "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi" nominasiyalarında fərqləniblər.

"Ədalətli oyun prinsiplərinə sadiq idmançı" nominasiyasında mükafat üçqat dünya çempionu, güləşçi Hacı Əliyevə təqdim olunub. "Ədalətli oyun prinsiplərinə sadiq səfir" nominasiyasında isə Əməkdar artist Tünzalə Ağayeva qalib elan edilib.

Konfransda həmçinin Rio-2016 Yay Olimpiya Oyunlarında iştirak etmiş Azərbaycan idmançılarına Beynəlxalq Olimpiya Komitəsinin döş nişanları təqdim olunub.

*Azərbaycan Gimnastika Federasiyası yerli yarışlar mövsümünə uğurla yekun vurub. Belə ki, dekabr ayının əvvəllərində gimnastika üzrə 4 növdə yarış keçirilib.*

# Gimnastlar Azərbaycan çempionatı və Bakı birinciliyində yarışıblar

Dekabrın 6-7-də Milli Gimnastika Arenasının köməkçi zalında akrobatika gimnastikası üzrə Bakı çempionatı və birinciliyi, aerobika gimnastikası üzrə Azərbaycan və Bakı birinciliyi və tamblinq üzrə Azərbaycan birinciliyi və Bakı çempionatı təşkil olunub. Yarışların ilk günündə balacalar, uşaqlar, yeniyetmələr və böyüklər yaş kateqoriyasına aid olan akrobatlar və aerobika gimnastları 3 müxtəlif yaş qrupunda qüvvələrini sınayıblar. Tamblinq cığırında isə balacalar və yeniyetmələr yaş kateqoriyasına aid gimnastlar öz aralarında ən yaxşıları müəyyənləşdiriblər. Yarışda Nizami rayonu idman məktəbi, Bakı Gimnastika Məktəbi, "Ocaq Sport" və Neftçi İdman Klublarının idmançıları iştirak ediblər.



Dekabrın 8-10 isə Milli Gimnastika Arenasında bədii gimnastika üzrə Azərbaycan birinciliyi və bölgələrarası kubok, batut gimnastikası üzrə Azərbaycan birinciliyi və Bakı çempionatı keçirilib. Gimnastlar Bakı Gimnastika Məktəbini, Respublika Kompleks İdman Məktəbini, "Ocaq Sport" və "Start" klublarını, həmçinin Su İdman Sarayını təmsil ediblər. Artıq dördüncü dəfədir təşkil olunan bölgələrarası kubok yarışında isə İsmayıllı, Göyçay, Gəncə, Qusar, Şirvan, Şağan, Kürdəmir, Naxçıvan, Mingəçevir, Xırdalan və Sumqayıt təmsilçiləri çıxış ediblər.

Yarışların birinci günündə balacalar, uşaqlar, yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyalarına daxil olan bədii və batut gimnastları medallar uğrunda mübarizə aparıblar. Yarışların ikinci günündə 2005-2006-cı illər təvəllüdlü bədii gimnastlardan ibarət komandalar lentlə qrup hərəkətlərində çıxış ediblər. Bölgələrarası kubok yarışlarında 2007-2009-cu illər doğumlu balacalar alətsiz və halqa, 2005-2006-cı illər təvəllüdlü yeniyetmələr isə top, gürzlər və lentlə hərəkətlərdə yarışıblar. 2002-2004-cü illər təvəllüdlü gənclər isə qrup halında halqa, top, gürzlər və lentlərlə hərəkətlərdə qüvvələrini nümayiş etdiriblər. Beləliklə, bədii gimnastlar balacalar, yeniyetmələr və gənclər kateqoriyalarında güclərini sınayıblar. Qrup hərəkətləri komandaları isə yalnız yeniyetmələr və balacalar yaş kateqoriyalarında medallar uğrunda mübarizə aparıblar.



Batutçular isə balacalar, uşaqlar, yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyalarında fərdi proqramda mübarizə aparıblar. Batutçuların yarışında yerli idmançılarla yanaşı, Gürcüstan təmsilçiləri də yarışıblar. Turnirin ən maraqlı məqamı isə son günə təsadüf edib. Belə ki, dekabrın 10-da "Qızıl yaş" adlandırılmış şou xarakterli yarış keçirilib. Bu yarışda bir neçə il əvvəl gimnast karyerasına son qoyaraq məşqçi-müəllim kimi çalışan gimnastlar iştirak ediblər.

# Aqşin Kazımzadənin xatirəsi yad edildi

Dekabrın 18-də Azərbaycan İdman Jurnalistləri Assosiasiyası və Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin İctimai Birliyinin (DAMM İB) birgə əməkdaşlığı ilə tanınmış idman jurnalisti Aqşin Kazımzadənin 80 illik yubileyinə həsr olunmuş anım gecəsi keçirildi. Anım gecəsində Aqşin Kazımzadənin ailə üzvləri, yaxın dostları və tanınmış idman jurnalistləri iştirak edirdilər. Tədbirdə əvvəlcə Aqşin Kazımzadənin həyat yoluna həsr olunmuş videoçarx nümayiş olundu. Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov Əməkdar jurnalist Aqşin Kazımzadənin keçdiyi həyat yoluna nəzər salaraq, onunla bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. O, Aqşin Kazımzadənin bir sıra mətbuat orqanlarında çalışdığını, müxtəlif illərdə "Qızıl qələm" və çoxsaylı fəxri fərmanlara layiq görüldüyünü tədbir iştirakçılarının diqqətinə çatdırdı.




Əməkdar Mədəniyyət Xadimi Aydın Əliyev Aqşin Kazımzadə ilə həm yaxın dost, həm də həmkar kimi Azərbaycan idman jurnalistikası sahəsində çalışdığı illərdən söz açdı, onun peşəkar jurnalist, sadiq dost, gözəl insan olduğunu vurğuladı.

"İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyev görkəmli idman jurnalistinin həyatının son günlərinədək "İdman" qəzetinin redaksiyası ilə əməkdaşlığından söhbət açdı. O, bildirdi ki, Aqşin müllimin son arzularından biri də "İdman" qəzetinin baş redaktoru olmuş Mirpaşa müəllimin həyat və yaradıcıllığına həsr olunmuş kitabın işıq üzü görməsi idi və qəzetin köməkliyi ilə bu arzu reallaşdı.

Əməkdar jurnalist Məzahir Süleymanzadə Aqşin Kazımzadə haqqında xatirələrindən danışarkən, onun jurnalist kimi çox böyük istedada malik olduğunu diqqətə çatdırdı. Onun böyük ziyalı, etibarlı dost və peşəkar jurnalist olduğunu vurğuladı.

DAMM İB-in birinci vitse-prezidenti, İctimai Nəzarət Koalisiyasının sədri (İNK) Rasim Məmmədov çıxış edərək qeyd etdi ki, bu cür tədbirlər görkəmli jurnalistin heç zaman unudulmaması üçün əvəzolunmazdır.

"Olimpiya dünyası" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Murad Fərzəliyev görkəmli idman jurnalisti Aqşin Kazımzadənin gənc idman jurnalistləri üçün bir örnək olduğunu dedi. Gənc idman yazarlarını Azərbaycan idman jurnaltistikası sahəsində öz sözünü demiş, özünəməxsus dəsti-xətt qoyub getmiş Aqşin Kazımzadə məktəbindən yararlanmağa dəvət etdi.

Futbol veteranı, idman jurnalisti Çingiz İsmayılov Aqşin Kazımzadə ilə bağlı gənclik xatirələrindən və birgə əməkdaşlıqlarından danışdı.

Sonda Aqşin Kazımzadənin həyat yoldaşı ailə üzvləri adından tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

## Ölkə kubokunun birinci mərhələsi başa çatıb

Dekabrın 17-də həndbol üzrə Azərbaycan kuboku uğrunda ilk mərhələnin oyunlarına yekun vurulub. Qadın həndbolçuların yarışında "Qarabağ" komandası "Gənclər Birliyi"ni 39:26, "Nur" həndbolçuları isə "Azəryol"u 26:24 hesabı ilə məğlub edib.

Kişilərin mübarizəsində "Bakı" kollektivi Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin (RİOEUGİM) yetirmələrinə asanlıqla qalib gəlib - 35:22. Çempionatın lideri "Məhsul" komandası isə "Təhsil" həndbolçularını üç xal fərqi ilə üstələyib - 32:29.

Ölkə kuboku uğrunda yarışların ikinci mərhələsinə gələn ilin mart-aprel aylarında start veriləcək.

## Millimizə yeni məşqçi cəlb olunub

Azərbaycan Stolüstü Tennis Federasiyası (ASTF) peşəkar mütəxəssislərin hazırlanması, yığma komandanın peşəkarlıq səviyyələrinin artırılması və daim gücləndirilməsi istiqamətində mühüm işlər görülür. Bu məqsədlə federasiya Çinin Hebei Cendinq Milli Stolüstü Tennis Təlim Akademiyası ilə müqavilə imzalayıb.

Beynəlxalq səviyyəli idmançıların və mütəxəssislərin hazırlanması, təlim-məşq proseslərinin daha səmərəli təşkili, peşəkarlıq səviyyələrinin artırılması, yığma komandanın gücləndirilməsi məqsədilə dəvət olunan məşqçi yeniyetmələrlə, o cümlədən yığma komandanın üzvləri ilə artıq məşqlərə başlayıb.

## Azərbaycanlı məşqçi Yaponiyada diploma layiq görülüb

Yaponiyada Beynəlxalq Cüdo Təhsili Proqramı üzrə seminarlar keçirilib. Dünya cüdosunun ən nüfuzlu tədbirlərindən olan təhsil proqramında müxtəlif ölkələrdən məşqçilər iştirak ediblər. Onlar bir ay müddətində Yaponiyanın tanınmış cüdo mütəxəssislərinin rəhbərliyi ilə təşkil olunan seminarlarda bu idman növünün sirlərinə daha yaxından yiyələniblər.

Seminarda ölkəmizi cüdo üzrə yeniyetmələrdən ibarət Azərbaycan milli komandasının məşqçisi Zaur Babayev təmsil edib. Məşqçimizə Beynəlxalq Cüdo Təhsili Proqramının diplomu verilib.

Zaur Babayevə diplomu Yaponiya Cüdo Federasiyasının prezidenti Yamaşita Yasuhiro təqdim edib.

*REDAKSİYANIN POÇTUNDAN*

# Bakı Texniki Kollecinin tələbələri fərqləniblər



Gənclik Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkil etdiyi XIII Respublika Spartakiadasının atletika idman növü üzrə yarışlarına yekun vurulub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda təşkil olunan yarışlarda Bakı Texniki Kollecinin komandası da mübarizə aparıb. Kollecin tələbələri bu yarışda uğurla çıxış ediblər. Belə ki, 100 m məsafəyə qaçışda Bakı Texniki Kollecinin komandası birinci yerə layiq görülüb. Fərdi yarışlarda kollecin tələbəsi Murad Paşayev 100 metr məsafəni 12,07 saniyəyə qaçaraq birinci yeri tutub. Estafet yarışında 4x100 m məsafəyə qaçışda Murad Paşayev ikinci yerə sahib çıxıb. Uzununa tullanma yarışlarında da kollecin tələbəsi Murad Paşayev 5 m 34 sm nəticə ilə birinci yerə layiq görülüb.

***Aydın Kazımbəyov,***
***Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi***

# Prezident Kuboku uğrunda yarışlar start götürüb

Dekabrın 17-də çövkən milli atüstü oyunu üzrə Prezident Kuboku uğrunda yarışa start verilib. Turnir Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF), Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı, Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə keçirilir. Azərbaycanın müxtəlif regionlarını təmsil edən 13 komandanın iştirak etdiyi turnirin ilk təsnifat mərhələsinin görüşləri dekabrın 17-20-də Şəki Respublika Atçılıq Turizm Mərkəzində oynanılacaq. İlkin təsnifat mərhələsinin nəticələrinə əsasən dörd ən güclü komanda turnirin final mərhələsində iştirak etmək üçün Bakıya yollanacaq.

Final mərhələsi Bakıda, Binə Atçılıq Mərkəzinin qapalı manejində keçiriləcək.

Dekabrın 22-də yarımfinal, dekabrın 23-də isə üçüncü yer uğrunda görüşlər və final qarşılaşması təşkil ediləcək.

Çempion olacaq komanda Azərbaycanda 2017-ci ilin ən güclü çövkən yığması və Prezident Kubokunun qalibi adını qazanacaq.



Qalib komandaların üzvlərinə ARAF tərəfindən kubok və medallar təqdim ediləcək.

Prezident Kubokunun ümumi mükafat fondu 50 min manatdır.

## Formula-1

# Azərbaycan Qran-prisi ilin ən yaxşı yarışı seçilib

2017-ci ildə Bakıda keçirilən Formula-1 yarışı dünyanın aparıcı kütləvi informasiya vasitələrində keçirilmiş sorğularda avtoidman azarkeşləri, media nümayəndələri və "Paddok Klub"un təmsilçilərinin əksəriyyəti tərəfindən mövsümün ən həyəcanlı və ən gözlənilməz anlarla dolu yarışı kimi qiymətləndirilib. Yarış zamanı Luis Hamilton ilə Sebastian Fettel arasında baş vermiş toqquşma avtoidman tarixinin ən yaddaqalan hadisələrindən biri olub.

Bakıda təşkil olunan sonuncu yarışda "Red Bull" komandasının pilotu Daniel Rikkardo gözlənilməz şəkildə qələbə qazanmışdı. Onu ardıcıl olaraq "Mercedes" və "Williams" komandalarının pilotları Valteri Bottas ilə Lens Stroll izləmişdilər. Üçüncü pilləyə çıxan Lens Strol bu nəticə ilə Formula-1 tarixində debüt ilində podiuma çıxan ən gənc pilot adına məhz bu yarışda sahib olmuşdu.


SOYMOTOR
COCHES Home Noticias Calendario Equipos y Pilotos Mundial
NOTICIAS
POLÉMICA DE 2017
Vettel hace autocrítica: "La peor sensación fue después de Bakú"
- El alemán admite que le costó superar su error en Azerbaiyán
- Lamenta más aquel fallo que el lance de carrera de Singapur o la avería de Japón
© Sutton Images
SOYMOTOR

Bundan başqa, Formula 1-in təkər təchizatçısı "Pirelli" şirkətinin yayımladığı son hesabatında bildirilir ki, 2017-ci ildə bütün Qran-prilər arasında Bakı yarışı 42 ötmə ilə ən çox ötmə edilən yarış olub. Həmin ötmələrin birində Daniel Rikkardo 1-ci döngədə bir dəfəyə üç bolidi keçmişdi və bu, Formula-1 şirkəti tərəfindən minlərlə azarkeş arasında ilin ən yaxşı 10 ötməsi arasında ən çox bəyənilən ötmə olub. "Red Bull"un pilotu da bu ötməni özünün yarış mövsümündə reallaşdırdığı ən yaxşı ötmə kimi qiymətləndirir.

Qeyd edək ki, 2017-ci il Formula-1 Azərbaycan Qran-prisi bir sıra beynəlxalq media qurumları tərəfindən yarış mövsümünün nəticələrinə dair keçirilən sorğuların əksəriyyətində ilin yarışı adına layiq görülüb.

## Əlbəyaxa döyüş

# Daxili işlər orqanlarının əməkdaşları əlbəyaxa döyüş üzrə yarışda iştirak ediblər

Daxili işlər orqanlarının əməkdaşları arasında əlbəyaxa döyüş üzrə çempionat keçirilib. Açılış mərasimində çıxış edən nazirliyin İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftexetdinova bildirib ki, Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, böyük irəliləyişlər, inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. "Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün idman ictimaiyyətimizi ruhlandırdı, ölkəmizi dünyanın idman mərkəzlərindən birinə çevrilməsi işinə səfərbər etdi. Görülmüş gərgin və məqsədyönlü işlərin nəticəsi bu gün göz qabağındadır. Ulu öndərimizin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının diqqəti biz idmançıları yeni qələbələrə səsləyir", - deyə Zemfira Meftexetdinova bildirib.

Daha sonra İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov yarışın qaydaları barədə iştirakçıları və komanda rəhbərlərini məlumatlandırıb.

Böyük maraqla gözlənilən yarışda idmançılar əvvəlcə nümunəvi çıxışlar göstəriblər. Sonra tam kontakt əlbəyaxa döyüş növləri üzrə turnirə start verilib.

DİN İdman Cəmiyyətində keçirilən yarışda ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən 10 komandanın heyətində 80 idmançı tatami üzərinə çıxıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda komanda hesabında ilk üçlükdə DİN Daxili Qoşunlarının Baş İdarəsi (DQBİ), Sumqayıt Şəhər Polis İdarəsi (SŞPİ) və Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) əməkdaşları qərarlaşıblar.

Turnirdə həmçinin fərdi mübarizələr üzrə də qaliblər müəyyənləşib. Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov və Seymur Qurbanbəyli iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın öz təcrübələrini ildən-ilə artırdıqlarını diqqətə çatdırıb. O bildirib ki, turnirin qalibləri hər il Qazaxıstanda keçirilən MDB dövlətlərinin daxili işlər orqanlarının əməkdaşları arasında təşkil olunacaq əlbəyaxa döyüş üzrə çempionata vəsiqə qazanıblar.

Sonda qaliblərə medallar, diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

## Bizim müsahibə

# "Peşəkar idmanda yalnız iradəli insanlar qalırlar"

***Allah insanı faili-muxtar yaradıb və ona yaşamaq haqqı verib. Bu həyatı necə yaşamaq seçimi isə onun öz əlindədir. Təbii ki, bu məsələdə insanın ailəsi, aldığı tərbiyə, əqidəsi, xarakteri, hansı sahənin dalınca getməsi önəmli şərtlərdəndir. Müsahibimiz Elvin Mürsəliyev həyatda düzgün seçim etməyi bacaran insanlardandır. Yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının üzvü, I Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının qalibi olan qonağımız "Olimpiya dünyası" qəzetinə idmançı olmağın onun həyatında rolundan, arzularından danışdı.***

***- İdman sənin üçün nədir?***

- İdmanda olduğum üçün çox xoşbəxtəm, başqa sözlə, idmançı olmaqdan qürur duyuram. İdman sərhədləri aşaraq bizləri dünyada tanıtdırır. Biz məhz idmanın sayəsində Azərbaycanda və onun hüdudlarından kənarda tanınırıq. Biz həm də ölkəmizi dünyada tanıtdırırıq. Bir sözlə, idmanın mənim həyatımda rolu əvəzedilməzdir.

***- Necə oldu ki, idmana gəldin?***

- 1988-ci il avqustun 17-də Bakının Yasamal rayonunda anadan olmuşam. Ailədə üç uşaq olmuşuq- 2 qardaş, 1 bacı. Evdə hamıdan dəcəl mən olmuşam. Əksər idmançılarda olduğu kimi, mənim də idmana gəlməyimdə dəcəlliyim böyük rol oynayıb. Evdə əlimdən bezmişdilər (gülür). Bir gün əmim oğlu məni üzgüçülüklə məşğul olduğu Mərkəzi Ordu İdman Klubuna (MOİK) apardı. Onda 12 yaşım var idi. Həmin vaxtlar burada böyüklərdən ibarət yığmanın təlim-məşq toplanışları keçirilirdi.

Əvvəlcə cüdoya yazıldım. Turnikdə məşq zamanı biləyim zədələndiyindən idmana bir müddət ara verdim. Sonra güləşlə məşğul olmağa qərar verdim. Məşqçi Elşən Eyvazovun rəhbərliyi altında çalışırdım.

***- Səni yığmaya neçənci ildə qəbul etdilər?***

- Hardasa 3 il məşğul olduqdan sonra 2003-cü ildə məni yığmaya götürdülər. Böyüklərdən ibarət yığma komandada Elçin Cəfərovun rəhbərliyi altında məşqlərə davam etdim.

## "Hər birimiz Fərid Mansurova bənzəmək istəyirdik"

***- Sənə böyük idmana gəlməyin üçün stimul verən nə oldu?***

- Fərid Mansurov 2004-cü ildə keçirilən Afina Yay Olimpiya Oyunlarında yunan-Roma güləşində çempion oldu. Bu, yığmanın hər bir üzvünə gələcək karyeramızda uğurlar əldə etmək üçün stimul verdi. Hər birimiz gözümüzdə qəhrəman təsiri bağışlayan Olimpiya çempionu, Fərid Mansurova bənzəmək istəyirdik.

***- I Avropa Oyunlarının və İslam Həmrəyliyi Oyunlarının qalibisən. Yarışlara yaxşı hazırlaşmışdın, yoxsa, rəqibin zəif idi?***

- 2015-ci ildə ölkəmizdə keçirilən I Avropa Oyunlarına çox ciddi hazırlaşmışdım. İstəmirdim ki, doğma divarlar arasında keçirilən yarışlarda məğlub olum. Həm də çox əziyyət çəkmişdim, məğlub olsam, özümə bağışlamazdım. Çox şükür ki, I Avropa Oyunlarının çempionu oldum. Bunu özüm üçün böyük uğur bilirəm. Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları da mənim üçün uğurlu oldu.

***- I Avropa Oyunlarında fəxri kürsüdə qızıl medalı sənə ölkə rəhbəri İlham Əliyev təqdim etdi. Hansı hissləri keçirirdin?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demək olar ki, güləşdə bütün final yarışlarını izləyirdi. Final görüşündən əvvəl məşqçilər heyətindən mənə dedilər ki, cənab Prezident sənin görüşünü izləyəcək. Bu, məni çox həyəcanlandırdı və məsuliyyətimi birə-beş artırdı. Mənə bu barədə deməsəydilər, bəlkə də, bu qədər həyəcanlanmazdım. Final görüşü idmançının taleyini həll edir. Bu zaman eyni anda səhvlərini, zədəni, görüşün necə başlayıb, necə qurtaracağını götür-qoy edirsən. Qalib olduqdan sonra elə bil dünyanı sənə verirlər. Ölkə rəhbərinin fəxri kürsüdə qızıl medalı boynuma taxmasını həyatımın ən gözəl anı hesab edirəm.












## "Anam çox əziyyətimi çəkib"

***- Müsahibələrində qələbəni anana həsr etdiyini demişdin...***

- Anam çox əziyyətimi çəkib. Bütün analar kimi hər zaman başımın üstündə olub, dayaq olub, kömək göstərib. Atamı tez itirmişik. Ölümündən əvvəl də bir müddət ailədən kənarda yaşayıb. Bunun üçün ailənin yükünü anam çiyinlərində daşıyıb. Anam həmişə yarışlarda mənə mənəvi dəstək olub. Bütün qələbələrimi anama həsr edirəm.

***- Ən böyük arzun nədir?***

- Olimpiya çempionu olmaq hər bir idmançının arzusudur. Mənim də məqsədim, arzularım var. Dünya, Avropa çempionatlarının, Qızıl Qran-pri turnirinin qalib və mükafatçısı olmuşam. Medal kolleksiyamda yalnız Olimpiya Oyunlarının medalı yoxdur. Tokio-2020 Yay Olimpiadasında bunun üçün çalışacağam. Allahın köməyi ilə, bu arzuma da çataram.

***- Elvin, sən ibadət edən idmançılardansan...***

- Bizim evdə həmişə Allaha, onun Quranına hörmət, məhəbbət olub. Anamgil seyid nəslindəndir. Gözümü açandan anamı, atamı namaz qılan görmüşəm. Şeytan adamı yoldan azdırır. Allah bizi düz yola, şərəfli, namuslu yola aparır. Vətəni, valideynləri sevməyi, zəhmətkeş olmağı öyrədir.

***- Yaşına görə çox təmkinlisən. Bunun səbəbi nədədir?***

- Yəqin ki, xasiyyətimdəndir. Sonra çəkdiyim əzab-əziyyət, atasız qayğılı günlərim məni vaxtından əvvəl böyüdüb. Bir də ki, dostlarım, ətrafımdakı insanlar həmişə yaşca məndən böyük olublar. Fərid Mansurov, İlqar Abdulov, Rövşən Bayramov kimi insanlardan nümunə götürməyə çalışmışam.

***- Ən güclü rəqibin kimdir?***

- Əsas rəqibim ikiqat Olimpiya çempionu, rusiyalı güləşçi Roman Vlasovdur. Onunla indiyədək 3 dəfə görüşmüşəm. İki görüşdə məğlub olmuşam, birində isə qalib gəlmişəm. Sonuncu dəfə rusiyalı idmançı ilə Fransanın Paris şəhərində keçirilən dünya çempionatında qarşılaşmışıq. İlk görüşdə ona qalib gəldim. Həlledici görüşdə Belarus idmançısına məğlub olduğum üçün bürünc medal qazandım. Hakimlərin qeyri-obyektivliyi mənə pis təsir etdi.

***- Yeri gəlmişkən, hakim ədalətsizliyi ilə çox qarşılaşmısan?***

- Son 4-5 ildə belə hallarla daha çox rastlaşıram, xüsusilə, I Avropa Oyunlarının qalibi olduqdan sonra. Etiraz edəndə sənə görə komandanı yarışdan kənarlaşdıra bilərlər. Gərək prinsipə getməyəsən. Amma sonra çalışırsan ki, gələn yarışda mübahisəli vəziyyət yaratmamaq, hakimlərə səbəb verməmək üçün daha yaxşı çıxış edəsən.

## "Peşəkar idmanda yalnız iradəli insanlar qalırlar"

***- Bəs həyatda ədalətsizlik görəndə neynirsən?***

- Çalışıram ki, belə hadisələrə soyuqqanlı yanaşım. Gec-tez haqq-ədalət öz yerini tutur. Belə hallarda səbirli və təmkinli olmaq çox vacibdir.

***- Peşəkar idmançı olmaq çətindirmi?***

- İdmançının həyatı ağırdır: yarışlar, məşqlər, zədələr. Peşəkar idmanda yalnız iradəli insanlar qalırlar. Bir də gərək işini sevəsən.

***- İnsanı güclü edən nədir?***

- İnsanı güclü edən onun xarakteri, iradəsi, düşüncə tərzi, həyatda tutduğu yeri, mövqeyidir. İnsan güclü varlıqdır və hər şeyə qadirdir. Uca rəbbimiz insanı faili-muxtar yaradıb, ona şüur, dərrakə verib. Bunu dərk edərək həyatda uğur qazanan, öz yolunu müəyyən edən insanlar güclü olduqları üçün xoşbəxtdirlər. İnsan daim irəli getmək üçün çox çalışmalı, zəhmətkeş olmalıdır. Mənəvi və xarici cəhətdən mükəmməl insan, tamdır, bütövdür.

***- İki ali məktəb qurtarmısan...***

- Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını (ADBTİA) bitirmişəm. İkinci təhsilimi Bakı Dövlət Universitetinin (BDU) hüquq fakultəsində alıram.

## "Ən yaxın dostum Rövşən Bayramovdur"

***- Dostluğu necə qiymətləndirirsən?***

- Dost sözünün mənası çox dərindir. Əsl dost azdır. Ən yaxın dostum komanda yoldaşım Rövşən Bayramovdur. Onunla 2002-ci ildən dostluq edirik. Artıq 15 ildir. Biz həm də ailəvi dostuq. Bir yerdə çətin, əziyyətli günlərimiz çox olub. Deyirlər, insan öz acısını başqa birində görəndə onu özünə yaxın, doğma bilir. Dostlarımın çoxu idman sahəsinin adamlarıdır.

***- Heç olub ki, dostların səni yanıltsınlar?***

- Belə hallar olub. Həmin "dostları" özümdən uzaqlaşdırmışam və onlarla haqq-salamı kəsmişəm.

***- Necə düşünürsən, bürc və ilin insanın taleyində rolu varmı?***

- (gülür) Vallah, mən bilmirəm nə rolu var. Amma özüm şir bürcündənəm və əjdaha ilində doğulmuşam.

***- Dünyanı hansı rəngdə görürsən?***

- Dənizin və səmanın rəngi olan mavi rəngdə. Bəziləri çox vaxt dünyadan, onun gərdişindən şikayət edirlər. Mən bununla razılaşmıram. Dünyanı yaxşı da, pis də edən biz insanlarıq. Gəlin, özümüz yaxşı olaq ki, dünyamız da yaxşı olsun.

***- Mütaliəni sevirsən?***

- Kitab, jurnal oxumağı çox sevirəm.

***- Musiqiyə münasibətin?***

- Muğamı çox xoşlayıram, xüsusilə, Alim Qasımovun ifasında. "Əziz dostum" mahnısını dinləməkdən zövq alıram.

***- Bəs kino?***

- Retro kinolara baxanda adam yorulmur. "Yol əhvalatı", "Qaynana", "Arxadan vurulan zərbə" filmlərinin bənzəri yoxdur. Düşünürəm ki, adıçəkilən filmlərdə rol alan "qaymaq" aktyorların yerini heç kəs verməyəcək.

***- İlin sonuna az qalıb. Yeni ildə qəzetimizə nə arzu edərdin?***

- "Olimpiya dünyası" həmişə idman sahəsinə, idmançılara geniş yer ayırır. İdman yarışlarının, tədbirlərin işıqlandırılmasında, idmançıların təbliğ olunmasında əməyiniz təqdirəlayiqdir. Kollektivinizi təbrik edir, yaradıcılıq işlərində uğurlar arzulayıram.

***Səadət Hakıyeva***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# İdmanda uğur qazanan iqtisadçılar

***Hər hansı dövləti, xalqı dünyada tanıdıran əsas sahələrdən biri də idmandır. İdman və bədən tərbiyəsi sağlamlıq, gümrahlıq mənbəyidir. Sevindirici haldır ki, ölkəmizdə idman günü-gündən inkişaf etməkdədir. Bu gün Azərbaycan dünyanın əsas idman mərkəzlərindən birinə çevrilib. Ölkəmizin 2015-ci ildə I Avropa Oyunlarına, bu il IV İslam Həmrəyliyi Oyunlarına, Formula-1 yarışlarına və digər mötəbər tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsi ölkəmizdə idmanın və bədən tərbiyəsinin kütləviliyindən, həmçinin beynəlxalq aləmdə bizə göstərilən etimaddan xəbər verir.***

***Respublikamızda minlərlə uşaq və yeniyetmə tanınmış idmançılarımızı, Olimpiya, dünya və Avropa çempionlarını özlərinə kumir seçərək müxtəlif idman növlərinin sirlərinə yiyələnirlər. Təbii ki, idman və bədən tərbiyəsinin kütləviləşməsində klublar qədər orta və ali təhsil məktəblərinin də böyük payı var. Belə təhsil ocaqlarından biri də Azərbaycan Dövlət İqtisad Universitetidir (ADİU). Əsası 1930-cu ildə qoyulan Azərbaycan Dövlət İqtisad Universiteti Cənubi Qafqazın ən böyük iqtisadyönümlü ali təhsil müəssisəsidir. Hazırda bu ali təhsil ocağında 9 fakültə fəaliyyət göstərir. Həmin fakültələrdə, ümumilikdə, 21 ixtisas üzrə 18 mindən çox tələbə təhsil alır.***

## Əldə olunan nailiyyətlərin arxasında uzun illər, gərgin zəhmət dayanır

Azərbaycanda idmana dövlət tərəfindən göstərilən xüsusi diqqət və qayğı sözügedən ali təhsil müəssisəsinin idman həyatına da əhəmiyyətli təsir göstərib. Belə ki, burada tələbələrin və əməkdaşların fiziki sağlamlığı, asudə vaxtlarının səmərəli təşkili istiqamətində məqsədyönlü kompleks tədbirlər həyata keçirilir, müvafiq maddi-texniki baza yaradılır. Universitetin ikinci tədris binasında yerli və beynəlxalq yarışların keçirilməsi üçün tələb olunan ən müasir standartlara uyğun voleybol və basketbol zalı, dördüncü tədris binasında isə əl oyunları zalı, trenajor zalı fəaliyyət göstərir. Universitet nəinki təhsil, idman sahəsində də, digər ali məktəblər arasında fərqlənir. Digər ali təhsil müəssisələri kimi ADİU-da idman kafedraları idman klubları ilə əvəz olunub. Klublarda idmana həvəsi olan onlarla, yüzlərlə tələbə gənc məşğul olur.

Bəs görəsən, haqqında sözü gedən ali məktəbdə məşqlər necə keçirilir? Məşqçi-müəllimlər və idmançı-tələbələr dərsin keyfiyyətindən razıdırlarmı? Universitetin komandaları spartakiada və universiadalarda hansı nəticələri əldə edirlər? Bu suallara cavab tapmaq və ümumiyyətlə, universitetin idman həyatı ilə yaxından tanış olmaq məqsədilə elm ocağının idman klubuna üz tutduq.

Klubun rəhbəri Mahmud Mustafayev qazanılan uğurları yüksək qiymətləndirdi. Onun fikrincə, əldə olunan nailiyyətlər uzun illərin nəticəsidir: "Kluba bir ildir ki, rəhbərlik edirəm. Bu günə qədər uğurlarımız çox olub. Bu bir və iki ilin söhbəti deyil. Əldə olunan nailiyyətlərin arxasında uzun illər, gərgin zəhmət dayanır. Bir idman kollektivi kimi çalışırıq ki, keçirilən tədbirlərdə yaxşı nəticələr göstərək. Universitetimiz keçən il təşkil olunan Tələbələrin XIII Universiadasında komanda hesabında 24 ali məktəb arasında 3-cü yeri tutub. Həmin yarışda şahmat komandamız kişilər arasında birinci, kişi və qadınlardan ibarət badminton komandamız isə ikinci yerə sahib olub. Üçüncü yerə kişilərdən ibarət velosiped və voleybol komandamız layiq görülüb".

## Əsas məsələ tələbələr arasında kütləviliyin təmin olunmasıdır

Mahmud Mustafayev ölkənin ali təhsil müəssisələrində idman kafedralarının klublarla əvəz olunmasında da münasibət bildirdi. O qeyd etdi ki, edilən dəyişikliklər günün tələbidir. "Əksər inkişaf etmiş ölkələrin universitetlərində artıq idman kafedraları idman klubları ilə əvəz olunub. Düşünürəm ki, bu, çox düzgün addımdır. Belə olduqda, asudə vaxtın daha səmərəli təşkili və tələbələrin idmanla daha yaxından məşğul olmaları üçün yaxşı imkan yaranır. Əsas məsələ isə, təbii ki, idman və bədən tərbiyəsinin tələbələr arasında kütləviliyinin təmin olunmasıdır. Klubların yaradılması məhz bu məqsədə xidmət edir", - deyə Mahmud müəllim bildirdi.

Avropanın əksər sənaye və təhsil müəssisələrində Həmkarlar Təşkilatı fəaliyyət göstərir. Onların əsas fəaliyyəti sahibkarlarla işçilər arasında, müəllimlərlə tələbələr arasında münasibətləri nizama salmaqdan ibarətdir. Elə İqtisad Universitetində də tələbələrin hüquqlarını müdafiə edən, onların qayğılarına qalan, problemləri ilə maraqlanan Tələbə Həmkarlar Təşkilatı (THT) və Tələbə Gənclər Təşkilatı (TGT) fəaliyyət göstərir. Bu təşkilatların əsas məqsədlərindən biri də məhz tələbə idman həyatının inkişafına dəstək olmaqdır. Müsahibimizin sözlərinə görə, kafedralar klublarla əvəz olunduqdan sonra tələbələrin idmana cəlb olunmasında Tələbə Həmkarlar Təşkilatının və Tələbə Gənclər Təşkilatının xüsusi ilə böyük rolu olub. Hər iki qurum həm yarışların keçirilməsində, həm idmanın təbliğində yaxından iştirak edirlər.

Söhbətimiz zamanı Mahmud müəllim ötən illər ərzində qazanılan uğurlar barədə də məlumat verdi. Onun sözlərinə görə, 2014-cü ildə Ədalət Muradov rektor seçildikdən sonra universitetin idman həyatında xüsusi bir canlanma başlayıb: "2014-cü ildə voleybol üzrə keçirilən respublika çempionatında qadınlardan ibarət komandamız ən yüksək nəticəni əldə edib. 2015-ci ildə keçirilən universiadada da tələbə idmançılarımız 16 komanda arasında fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. 2016-cı ildə təşkil olunan universiada yarışlarında isə velosiped komandamız beşinci yeri tutub. Bundan başqa, 2017-ci ilin aprelində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş səmti müəyyənetmə üzrə idman yarışında fəal iştirakına görə komandamız fəxri fərmanla təltif olunub. Qeyd edim ki, müəllimlərimiz də yarışlarda uğurla çıxış edirlər. 2015-2016-cı tədris illərində ali məktəb müəllimləri arasında keçirilən voleybol üzrə respublika çempionatında kollektivimiz 12 komanda arasında fəxri kürsünün ən yüksək pilləsində yer alıb". İqtisad Universitetinin idman komandası buyaxınlarda növbəti uğuruna imza atıb. Belə ki, noyabrın 17-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən Respublika Universiadasında universitetin badminton komandası (oğlanlar və qızlar) II yerə layiq görülüb. Həmin yarışda universitetimizin badminton üzrə məşqçi-müəllimi Kənan Rzayev cütlüklərin yarışında ikinci, şəxsi yarışlarda isə üçüncü nəticə göstərib. Tələbələr arasında keçirilən şəxsi yarışlarda əmtəəşünaslıq fakültəsinin II kurs tələbəsi Anna Jeleznyak III yeri tutub.



## Universitetimizin tələbələri arasında şahmat idman növünə böyük həvəs var

Universitetdə şahmat və dama idman növlərinə xüsusilə böyük maraq vardır. Mahmud müəllim bizimlə söhbətində qeyd etdi ki, hər il şahmat üzrə keçirilən ənənəvi yarışlarda universitetin komandası uğurlu nəticələr əldə edir ki, bu da intellektli gənclərin yetişməsi deməkdir. Klub rəhbərinin sözlərinə görə, tələbələrin şahmata olan həvəsi onların zehni qabiliyyətini çox inkişaf etdirir: "Universitetimizin tələbələri arasında şahmat idman növünə böyük həvəs var. Bu idman növü üzrə əldə olunan nəticələr bizi çox sevindirir. Şahmat komandamız 2014-cü ildə keçirilən universiadada birinci, 2015-ci ildə ikinci, 2016 və 2017-ci illərdə isə yenə birinci olublar. Dama üzrə isə bu il təşkil olunan universiadada komandamız üçüncü yerə layiq görülüb. Klubumuzda şahmat üzrə bir sıra tədbirlər planı hazırlanıb və gündəlik məşğələlər keçirilir. Bildiyimiz kimi, Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alan tələbələr riyaziyyatı, məntiqi daha çox sevirlər və onların zehni qabiliyyətləri daha yaxşı inkişaf edir".

Müsahibimizin sözlərinə görə, müəyyən yarışların final mərhələsində Azərbaycan Dövlət İqtisad Universiteti Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) komandası ilə rəqabət aparıb və bir çox hallarda qalib də gəlib. Bu amil universitetdə idman və bədən tərbiyəsinə diqqət və qayğıdan, tələbələr arasında bu sahəyə maraqdan irəli gəlir. Tələbə idmançıların əldə etdikləri uğurlar da bunu deməyə əsas verir.

Tələbələrin yay tətilini səmərəli keçirməsi də son dərəcə vacib məsələlərdən biridir. Gənclər yay aylarında istirahət etməklə yanaşı, fiziki sağlamlıqlarının da qeydinə qalmalıdırlar. Söhbətimiz zamanı təcrübəli mütəxəssis də bunu təsdiq etdi və bildirdi ki, universitetin respublikamızın ən dilbər guşələrindən biri olan Qubanın 2-ci Nügədi kəndində idman və sağlamlıq kompleksi vardır. Kompleks 6 hektar ərazini əhatə edir. Mahmud Mustafayevin verdiyi məlumata əsasən, universitet kollektivi hər yay öz istirahətini burada keçirir: "Müəllim və tələbələr üç aylıq istirahət müddətindən məqsədyönlü və səmərəli istifadə etməyi bacarmalıdırlar. Bu müddət ərzində onlar istirahət etməklə yanaşı, həm bilik səviyyələrini, həm də fiziki hazırlıqlarını artırmağa çalışırlar. Artıq bir neçə ildir ki, kollektivimiz üçün belə bir imkan yaradılıb. Nügədidə quraşdırılan idman avadanlıqları da bütün müasir standartlara cavab verir. Kompleksdə futbol, voleybol, basketbol, həndbol, tennis meydançaları, fitnes, trenajor zalı, üzgüçülük hovuzu və başqa idman qurğuları istifadəyə verilib. Kollektivimizin üzvləri yayda idman və sağlamlıq kompleksində gözəl istirahət edir və idmanla məşğul olurlar".

Yuxarıda da qeyd etdiyimiz kimi, Mahmud Mustafayev kluba bir ildir ki, rəhbərlik edir. Mahmud müəllim bizimlə söhbətində bildirdi ki, işə başladığı ilk gündən etibarən universitetin idman kollektivi arasında sağlam mühiti təmin etməyə çalışıb. Onun fikrincə, hər bir uğurun arxasında ilk öncə sağlam mühit, humanizm prinsipləri dayanır: "İdman mədəniyyətin bir parçasıdır və mədəniyyətin də əsas prinsiplərindən biri də heç kimin haqqına girməmək, dürüstlük, humanist olmaqdır. Universitetimizin kollektivi biri-birinə çox mehribandır. Əgər yarışlarda hakimlərdən humanistlik, ədalət tələb ediriksə, ilk növbədə özümüz də tələbə-idmançılara qarşı humanist, ədalətli olmalıyıq. Tələbə gənclərin savadlı olmaları, gələcəkdə vətənə, dövlətə şərəflə xidmət etmələri üçün onlara düzgün istiqamət verməyə çalışırıq".



## "İstedadlı tələbə həm təhsildə, həm də idmanda nailiyyət qazana bilər"

Müşahidələr göstərir ki, bütün elm də təhsil ocaqlarında şagird və tələbələr idmandan daha çox təhsilə diqqət yetirirlər. Bəzən tələbələrin təhsilə daha çox meylli olmaları onların idmandan yayınmalarına səbəb olur. Şübhəsiz ki, sağlamlıq da təhsil qədər vacibdir. Müsahibimizin sözlərinə görə, gənc nəsil istədiyi təqdirdə elmə də, idmana da paralel şəkildə vaxt ayıra bilər. Burada hər şey fərdin özündən asılıdır: "İstedadı tələbə həm təhsildə, həm də idmanda nailiyyət qazana bilər. Əsas odur ki, həvəs olsun. Universitetdə məşqlər könüllülük prinsipi əsasında aparılır. Tələbələr məşqlərə yazılmazdan əvvəl onlara təqdim olunan anketi doldururlar. Həmin anketdə onlar özləri haqqında məlumat verməklə yanaşı, mövcud şəraitə uyğun məşğul olmaq istədikləri növü də göstərirlər. Beləliklə, onların konkret olaraq hansı idman növünə maraq göstərmələri bəlli olur".

Bu bir həqiqətdir ki, hər bir təhsil və idman ocağı ilk növbədə öz yetirmələri ilə sayılıb, seçilir. Universitetdə idmana olan diqqət və qayğı idman sahəsində ilbəil artmaqda olan uğurlarda özünü büruzə verir. İqtisad Universitetinin minifutbol üzrə komandası respublika universiadasının qalibi, eləcə də, Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunan turnirin ilk qalibidir. Ali təhsil ocağının tələbələri və məzunları arasında dünya və Avropa çempionları, beynəlxalq idman ictimaiyyəti tərəfindən tanınan idmançılar çoxdur. Mahmud müəllim universitet kollektivinin onların hər biri ilə qürur duyduğunu dedi: "Yunan-Roma güləşi üzrə Olimpiya çempionu Fərid Mansurov, cüdo üzrə Avropa çempionu və Rio-2016 Olimpiadasının gümüş mükafatçısı Elmar Qasımov, gənclərdən ibarət qadın voleybolu üzrə yığma komandamızın üzvləri İndira Abdullayeva və Firuzə Dürüstkarini, cüdo üzrə respublika çempionu Qabil Qurbanov, İlqar Ağarəhimov, Kənan Nağıyev, şahmat üzrə beynəlxalq dərəcəli qrossmeysterlər Şəhriyar Məmmədyarov, Eltac Səfərli və digərləri məhz bizim universitetin məzunlarıdır. Onu da deyim ki, Şəhriyar Məmmədyarov 2010-cu ildə Moskvada keçirilən "Tal Memorial"ının, Eltac Səfərli Sankt-Peterburqda təşkil olunan "Çiqorin Memorail"ının, qadın şahmatçımız Fidan Ağasıyeva isə Türkiyədə təşkil olunan türkdilli ölkələrin ali məktəbləri arasında şahmat olimpiadasının qalib olublar. Biz onların hər biri ilə fəxr edirik və çox sevinirik ki, bizim ölkəmizi beynəlxalq idman aləmində layiqincə təmsil edən məzunlarımız var. Onlar indiki tələbələrə nümunədir".

## "Klubumuzda stolüstü tennis növü ilə məşğul olan oğlanların sayı qızların sayından daha çoxdur"

Qürur duyduğumuz idmançı tələbələrimizdən biri də Türk Dünyası İşlətmə fakültəsinin tələbəsi Fəridə Əliyevadır. O, idmanın karate-do növü uzrə məşğul olur. İdmançımız 2013-ci ildə keçirilən dünya çempionatında bürünc medala layiq görülüb. Bu il ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında isə fəxri kürsünün 2-ci pilləsində yer alıb. Bu il İspaniyada keçirilən dünya çempionatında da Fəridə Əliyeva üçüncü yerə layiq görülüb. Təbii ki, bu uğurlar hər birimizi sevindirir və gələcəkdə yeni uğurlar əldə etməyə ruhlandırır".

Klub müdiri ilə söhbətdən sonra universitetin idman müəllimlərindən bizi maraqlandıran suallar ətrafında fikirlərini öyrəndik. Stolüstü tennis üzrə məşqçi Aygün İsmayılova qazanılan uğurları yüksək qiymətləndirdi: "Universitetimizin idman ənənələri çox zəngindir. Son illər bu sahədə xüsusi ilə böyük canlanma hiss olunur. Bu da universitet rəhbərliyinin və klub müdirinin idmana göstərdikləri diqqət və qayğının nəticəsdir. Komandamız keçən il 24 komanda arasında keçirilən yarışda beşinci oldu. Bu da kifayət qədər yaxşı nəticədir. Hər ay fakültələrarası daxili yarışlar keçiririk ki, həmin yarışlarda daha çox iqtisadiyyat fakültəsi və Rus İqtisad Məktəbinin tələbələri fəallıq göstərirlər. Onu da deyim ki, klubumuzda stolüstü tennis növü ilə məşğul olan oğlanların sayı qızların sayından daha çoxdur".

Futbol dünyada ən populyar idman növlərindən biridir. Bu idman növü ölkəmizdə də inkişaf etməkdədir. İqtisad Universitetinin tələbələri futbolu çox sevirlər. Futbol üzrə məşqçilərdən biri Tofiq Məmmədov bizimlə söhbətində bildirdi ki, gənclərin hansı idman növü ilə məşğul olması o qədər də vacib deyil, əsas məsələ odur ki, onlar fiziki cəhətdən möhkəm olsunlar və idmana biganə yanaşmasınlar. "Bu gün bütün idman müəllimlərinin, məşqçilərin qarşısında duran prioritet məsələlərdən ən əsası sağlam gənclik yetişdirməkdir. İdman sağlamlıqdır. İdmanla peşəkar şəkildə məşğul olmaq şərt deyil. Amma yaxşı olar ki, hər bir yeniyetmə və gənc həvəskar şəkildə də olsa müxtəlif bölmələrə yazılsın. Bizim əsas vəzifəmiz yeniyetmə və gənclər arasında idmanı təbliğ emək, kütləviləşdirməkdir. Azərbaycan idman ölkəsidir və bunu təmsilçilərimiz beynəlxalq arenada yüksək nailiyyətlər qazanmaqla sübut edirlər. Tələbə gənclərimiz gələcəyin qurucusudurlar və onların sağlam olması mütləqdir".

Voleybol üzrə məşqçi Səyavuş Axundov isə belə hesab edir ki, idmanda əldə olunan nailiyyətlər hər şeydən əvvəl ölkənin dünyada tanınmasına şərait yaradır. Onun fikrincə, məhz ölkəni, vətəni layiqincə təmsil etmək üçün idmanla məşğul olmaq əsas şərtdir. Məşqçi onu da dedi ki, xüsusilə kollektiv idman növləri ilə məşğul olmaq yeniyetmə və gənclər üçün daha faydalıdır. Bu, həm sağlamlıqdır, həm də gənclərə kollektiv mübarizəni aşılayır.

Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, Azərbaycan Dövlət İqtisad Universitetininn tələbələri arasında idmana kifayət qədər böyük maraq göstərilir. Əldə olunan nəticələr və uğurlar bunu deməyə əsas verir. Universitet və idman klubunun kollektivi qazanılan uğurlara görə sevinir və fərəhlənir. Yəqin ki, hələ uzun illər bu elm ocağında Olimpiya çempionu Fərid Mansurovun, tanınmış şahmatçımız Şəhriyar Məmmədyarovun və digər titullu idmançıların davamçıları yetişəcək və dünya arenalarında qürurla üçrəngli bayrağımızı dalğalandıracaqlar.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

Olimpiya dünyası

19 - 25 dekabr 2017

# Jurnalistlər ilin ən yaxşılarını seçdilər

***Ötən həftə İdman Araşdırmalar Mərkəzinin (İAM) "İlin qalibləri-2017" layihəsi çərçivəsində "9 ilə 13" adlı mükafatlandırma mərasimi keçirilib. Tədbirdə millət vəkilləri, tanınmış idman xadimləri, idmançılar və KİV nümayəndələri iştirak ediblər.***

***Mərasimdə giriş sözü ilə çıxış edən İAM-ın sədri Elşən Məmmədov səsvermədə 60 KİV nümayəndəsinin iştirak etdiyini bildirib.***

***Sonra mükafatlandırma mərasimi başlayıb. Əvvəlcə xüsusi mükafatların sahibləri səhnəyə dəvət olunublar.***



Ardınca Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev ilin yekunları haqda fikirlərini bildirib: "Azərbaycanda idman siyasəti özünü göstərməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən idman ictmaiyyətinin nümayəndələrinə xüsusi adların, medalların verilməsi ənənə halı alıb. 2017-ci ili İslam Həmrəyliyi ili kimi başa vururuq. "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları bütün dünyaya səs saldı. Mötəbər turnirdə yaxşı nailiyyətlərimiz oldu. Xüsusən, komanda idman növlərində də uğurlarımız var. "Qarabağ"ın Çempionlar Liqasındakı çıxışını da qeyd edərdim".

Nominasiya qaliblərinin təltif edilməsi zamanı əvvəlcə səhnəyə ilin idmançısı - Hacı Əliyev dəvət edilib. İAM-ın sorğusunda ikinci dəfə bu ada sahib olan sərbəst güləş üzrə üççat dünya çempionuna mükafatı Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov təqdim edib. Nominant çıxışı zamanı bunları deyib: "Bu cür dəyərli insanlarla bir yerdə olduğum üçün sevinirəm. Məni "İlin idmaçısı" seçdiyiniz üçün hamınıza təşəkkür edirəm. Bundan sonra da uğurların davamını gətirməyə çalışacağam. Düşünürdüm ki, rəqabət mənimlə Şəhriyar Məmmədyarov arasında deyil, boks üzrə üçqat dünya çempionu Məhəmmədrəsul Məcidov arasında olacaq".

Futbol üzrə "İlin komandası" nominasiyasında qalib olan "Qarabağ"ı Azərbaycanın ilk peşəkar boksçusu Fariz Məmmədov təbrik edib.

Digər növlər üzrə ilin baş məşqçisi seçilən Fərhad Məmmədova mükafatı Futbol Veteranları İttifaqının sədri Oqtay Abdullayev verib.

"İlin futbolçusu" nominasiyasında ardıcıl ikinci il "Qarabağ"ın kapitanı və Azərbaycan millisinin keçmiş futbolçusu Rəşad Sadıqov fərqlənib. Rəşad Sadıqovun adından mükafatı "Qarabağ"ın gənc müdafiəçisi Abbas Hüseynov qəbul edib. Onu Mətbuat Şurasının sədri Əflatun Amaşov mükafatlandırıb. Sonra Əflatun Amaşov fikirlərini bildirib: "SSRİ dönəmində Yay Olimpiya Oyunlarında çox az idmançımız medal qazanırdı. Milli idmançıların sayı az idi. Lakin müstəqillik əldə edəndən sonra medallarımızın sayı çox olub. Bu da Azəraycan xalqının potensialından irəli gəlir. "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov milli qəhrəmanımızdır. Komandası bəzi oyunlarda çox qol buraxsa da, özləri də qol vurdular, xal topladılar. Əsas budur. Azərbaycan jurnalistləri və xalqımız adından sizə minnətdaram. Xalqımızın nəyə qadir olduğunu və uğurun yolunu göstərdiniz".

İlin əcnəbi idmançısı seçilən "Qarabağ"ın və CAR millisinin hücumçusu Dino Ndlovunu sərbəst güləş üzrə Azərbaycan millisinin baş məşqçisi Firdovsi Umudov mükafatlandırıb.

"İlin idman xadimi" nominasiyasında qalib olan "Qarabağ"ın vitse-prezidenti Tahir Gözəl hazırda ölkədə olmadığından, onun adından səhnəyə dəvət olunan Asif Əsgərovu Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov mükafatlandırıb.

"İlin ən nüfuzlu yarışı" nominasiyasında "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları seçilib. Millət vəkili Adil Əliyev mükafatı "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərova təqdim edib.

"İlin yazarı" nominasiyasında qalib olan Elnur Həmidovu Peşəkar Futbol Liqasının Media və İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Aslan Şahgəldiyev təbrik edib.

Ali nomasiya üzrə "İlin baş məşqçisi" Qurban Qurbanov seçilib. Baş məşqçiyə mükafatı Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev təqdim edib.

Qeyd edək ki, sorğuda "Olimpiya dünyası" qəzetini Rahib Səmədov təmsil edib.

***Əliyə İlyasova***

# Azərbaycan pəhləvanları bəlli oldu

***Dekabrın 14-18-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı keçirildi.***

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Güləş Federasiyasının (AGF) birgə təşkilatçılığı ilə keçirilən yarışlarda 18 yaşı tamam olan, 1999-cu il təvəllüdlü və daha yuxarı yaşlı idmançılar iştirak etdilər. Dünya Güləş Birliyinin (DGB) qaydalarına əsasən keçirilən yarışlar AGF-nın Hakimlər Kollegiyasının təyin etdiyi hakimlər tərəfindən idarə olundu. Sərbəst güləşçilər 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq-dək, yunan-Roma güləşçiləri isə 55, 60, 63, 67, 72, 77, 82, 87, 97 və 130 kq-dək çəki dərəcələrində qüvvələrini sınadılar. Azərbaycan çempionatı bu il yeniyetmə güləşçilərin qitə və dünya birinciliklərində sınaqdan keçirilən və ikigünlük yarış proqramı üzrə təklif olunan yeni qaydalara uyğun təşkil olundu.

Güləş üzrə böyüklər arasında Azərbaycan çempionatının açılış mərasimi dekabrın 14-də keçirildi. Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov tədbirdə çıxış edərək ölkədə idman və bədən tərbiyəsinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışdı. Ötən illərdə olduğu kimi, 2017-ci ilin də Azərbaycan idmanı üçün uğurlu olduğunu qeyd edən İsmayıl İsmayılov əldə olunan nailiyyətlərdən söhbət açdı.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev bildirdi ki, ölkəmizin beynəlxalq Olimpiya Hərəkatında fəal iştirakı, idmançılarımızın qazandıqları yüksək nəticələr respublikamızın idman sahəsində potensial imkanlarını nümayiş etdirməklə, bu sahəyə yüksək səviyyədə dövlət qayğısından xəbər verir: "Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hazırda bu siyasət dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir".

Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov vurğuladı ki, Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının məntiqi nəticəsi olaraq son illərdə paytaxt Bakı dünyanın idman mərkəzlərindən birinə çevrilib. Bu gün Azərbaycan ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi ölkələr arasında öz layiqli yerini tutub. Sahib Ələkbərov dedi: "Azərbaycanda idmanın bütün növlərinin inkişafı diqqət mərkəzində saxlanılır. İdmançılarımız Rio-2016 Yay Olimpiya Oyunlarında böyük uğurlar qazanıblar. Təsadüfi deyildir ki, mötəbər yarışda qazanılan 18 medaldan 9-u məhz güləşçilərimizin payına düşür". AGF-nin vitse-prezidenti belə yarışların keçirilməsinin Tokio-2020 Olimpiya Oyunlarına hazırlıq üçün böyük əhəmiyyət kəsb etdiyini də vurğuladı.



Ümumilikdə, 177 yunan-Roma güləşçisinin mübarizə apardığı yarışlarda Ziya Zeynalov (55 kq, "Neftçi"), Sakit Quliyev (60 kq, "Neftçi"), Taleh Məmmədov (63 kq, "Gömrükçü"), Kamran Məmmədov (67 kq, DİN İC), Ülvi Qənizadə (72 kq, "Neftçi"), Həsən Əliyev (77 kq, MOİK, "Neftçi"), Rafiq Hüseynov (82 kq, MOİK), İslam Abbasov (87 kq, MOİK), Türmən Eyyubov (97 kq, MOİK) və Cavid Feyziyev (130 kq, "Pəhləvan") fəxri kürsünün ən yüksək pilləsində yer aldılar.

212 idmançının iştirak etdiyi sərbəst güləş yarışlarında Azərbaycan çempionu adını Əfqan Xaşalov (57 kq, "Zenit"), Mircəlal Həsənzadə (61 kq, "Abşeron"), Ağahüseyn Mustafayev (65 kq, MOİK), Murtuz Müslümov (70 kq, "Atasport"), Hacımurad Ömərov (74 kq, "Atasport"), Cəbrayıl Həsənov (79 kq, "Zenit"), Aleksandr Qostiyev (86 kq, "Atasport"), Şərif Şərifov (92 kq, "Atasport"), Nurməhəmməd Hacıyev (97 kq, "Atasport") və Cəmaləddin Məhəmmədov (125 kq, "Atasport") qazandılar.

Çəki dərəcələri üzrə ilk üç yeri tutan idmançılar AGF tərəfindən müvafiq diplom, medal və pul mükafatı ilə təltif edildilər. Qalib idmançılar milli komandanın heyətinə cəlb ediləcək gələn il ərzində komandanın iştirak edəcəyi beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

***Səadət Hakıyeva***

# Təşkilat Komitəsinin ilk iclası keçirilib

Bakıda velosiped idmanının BMX növü üzrə təşkil olunacaq dünya çempionatı ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası keçirilib.

İclası giriş sözü ilə Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov açıb. Yaqub Eyyubov bildirib ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının gələn il iyunun 5-9-da Bakıda keçirilməsi qərarı Azərbaycanın idman siyasətinin növbəti bir qələbəsidir. Bu qərar, həm də beynəlxalq qurumların ölkəmizdə idman və bədən tərbiyəsi sahəsində əldə olunan nailiyyətlərə verilən yüksək qiymətdir. Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Olimpiya idman növü olan BMX üzrə dünya çempionatının Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə geniş tərkibli Təşkilat Komitəsinin yaradılması barədə Sərəncamını ölkə başçısının bütövlükdə idmanın, o cümlədən velosiped idmanının inkişafına göstərdiyi diqqət və qayğının daha bir bariz nümunəsi kimi dəyərləndirib.

Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti Sahib Ələkbərov geniş təqdimatla çıxış edərək, dünya çempionatına hazırlıqla bağlı görülmüş işlər barədə məlumat verib. Hazırlıq işləri ilə bağlı videoçarxın nümayişindən sonra qeyd olunub ki, bu günə qədər artıq 30 ölkə dünya çempionatında iştirakla bağlı müraciət edib və müraciətlərin sayı artmaqdadır. Sahib Ələkbərovun sözlərinə görə, dünya çempionatının keçiriləcəyi BMX Trekində aparılmış yenidənqurma işləri bu ilin oktyabr ayında təşkil olunan Dünya Sınaq Yarışı Beynəlxalq Velosipedçilər İttifaqının rəsmi nümayəndələri tərəfindən yüksək qiymətləndirilib.

Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov yarışın yüksək səviyyədə keçirilməsi üçün bütün qüvvələrin səfərbər edilməsinin vacibliyini bildirərək dünya çempionatının təşkili üçün cavabdeh olan qurumların rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verib.

# Cüdoçularımız "World Masters" turnirində iki bürünc medal qazandılar

Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən cüdo üzrə "World Masters" turnirinə yekun vurulub. 46 ölkədən 212 idmançının mübarizə apardığı beynəlxalq turnirdə Azərbaycan milli komandası yeddi cüdoçu ilə təmsil olunub. Komandamız yarışın ilk günündə aktivinə bir medal yazdırıb. 73 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Hidayət Heydərov mötəbər yarışda bürünc medal qazanıb.



Turnirin sonuncu günü Azərbaycan milli komandası daha bir medal qazanıb. 100 kq çəki dərəcəsində mübarizə aparan Elxan Məmmədov üçüncü yer uğrunda mübarizədə ev sahibi Kiril Denisova qalib gələrək bürünc medala sahib olub.

## Mütəxəssis rəyi

# Baş məşqçiyə uzun müddət şans verilməlidir?!

***Bu sual, mövzu uzun müddətdir ki, futbol ictimaiyyəti arasında müzakirə olunur. Qurban Qurbanovun timsalında nümunə göstərilir, müxtəlif arqumentlər gətirilir. Bundan istifadə edən məşqçilər də özlərinə bəraət qazandırmağa çalışırlar... Dərin təhlillər aparılmalıdır. Azərbaycan futbolunun ən böyük problemlərindən biri elə problemlərə üzdən yanaşmaqdır.***

Dünyada əsasən iki kateqoriyalı klublar mövcuddur: köklü, tarixi ənənəsi, formalaşan oyun üslubu olan daimi lider klublar və başqaları. Dünyada nəhəng klublardan tutmuş ölkə miqyasında olan bütün klublara qədər... Lider klublar eksperiment məkanı deyil. Ola da bilməz. Belə klublar tarixinə uyğun idarə olunmalı, fəlsəfəsinə, ruhuna görə məşqçi, futbolçular seçilməli, yetişdirilməlidir. "İmprovizasiya" məkanı ikinci dərəcəli klublarda ola bilər.

Məşqçilər formalaşmış peşəkar psixologiyaya malikdir. 70-80 faizi komandanın qələbə, heç-heçəsindən çox görüşdən sonra mətbuat konfransında "məğlubiyyəti kimin üstünə atım" düşüncəsi ilə meydana çıxır. "Məğlubiyyətlərin günahkarı mənəm" deyən məşqçi görmüsünüz? Məsuliyyətdən qaçmaq məşqçilərin peşəkar vərdişidir. Klublarda zəif idarəçilik olanda isə bu "vərdiş" pik nöqtəyə çatır. Lider klubları zirvədə saxlamaq üçün işini bacaran lider rəhbərlər, məşqçilər, futbolçular lazımdır.

Gələk yuxarıda qeyd etdiyim məsələyə. Qurban Qurbanova uzun müddət ona görə şans verilib ki, məşqçilik karyerasının ilk vaxtlarından potensialını göstərməyə başlayıb. Hətta "Neftçi"də çalışdığı ilk ilində də sona kimi çempionluğa runda mübarizə aparıb.

"Qarabağ" klubunda isə pley-offlar "yaşaya-yaşaya", bürünc, gümüş medallar qazanaraq sonda ölkə çempionluğunu əldə edib. Bununla yanaşı, klub Avropa və Çempionlar Liqasında qrup mərhələsinə vəsiqə əldə edərək tarixi uğurlar qazanıb. Qurban Qurbanov çətinliklər görərək, istefalar eşidərək, püxtələşə-püxtələşə milli komandanın baş məşqçi vəzifəsinə qədər yüksəlib. Bu, qırılma nöqtəsi də ola bilərdi. Xatırlayıram, 2012-ci ildə "Neftçi"nin tarixi uğuru fonunda "Qarabağ" 4-cü yerlə kifayətləndi və avroliqaya vəsiqə belə qazana bilmədi. Həqiqətən, həmin il "Qarabağ"ın sponsorları, Qurban Qurbanov üçün çətin dönəm idi. Ya tamam, ya davam dilemması ilə qarşı-qarşıya dayanmışdılar. Baş məşqçi ciddi təzyiqlər, rəhbərliyin inamsızlığını görsə idi, özü də istefa verə bilərdi. Doğru analizlər, ictimaiyyətin dəstəyi (istəməyənlər də var idi) kritik nöqtəni aşmağa imkan verdi. İndiki uğurların təməli 5 il əvvəl atılmış oldu. Buna görə də ilk növbədə "Qarabağ" rəhbərliyinə xüsusi təşəkkür düşür.

Bu, boşuna verilən qərar deyildi. Çalışdığı vaxtda "Qarabağ" heç vaxt ortabab, autsayder rolunda olmayıb. Hər mövsüm stabil olaraq liderlər arasında mövqeyini qoruyurdu. Uğursuzluqdan isə heç kim sığortalanmayıb. Əsas odur ki, bu uğursuzluqlar davamlı olmasın. Belə olsaydı Qurban Qurbanovu heç kim bağışlamazdı və üzün müddət şans verilməzdi.

"Neftçi" də çalışdığım 5 il ərzində Bakıda, Quzanlıda 30-a yaxın prinsipial, barışmaz, çempionluq, kubok uğrunda oyunlarımız keçirilib. Görüşlərdə məğlubiyyət, qələbə, heç-heçələr də olub. Qurban Qurbanov bir dəfə də olsun uğursuzluqlara bəhanələr gətirməyib, öz səhvləri üzərində çalışıb. Məşqçilərin bacarığı tək fiziki, taktiki, nəzəri biliklərlə kifayətlənməməlidir. Sponsor, rəhbərlik, rəqiblər, ictimaiyyət, azarkeş, media ilə əlaqələr, psixoloji yanaşma, ünsiyyət çox vacibdir. Qeyd etdiklərim lider məşqçilərin formalaşmasında mütləq amildir. "Məşqçilərə uzun müddət şans verilməlidir" ifadəsi, fikirləri şablonluqdan uzaq olmalıdır.

Bu fərdi məsələdir və kütləvi olaraq hər məşqçiyə şamil oluna bilməz. Aparıcı klublarda çalışmaq böyük bacarıq, istedad, əzmkarlıq, geniş təfəkkür tələb edir. Yuxarıda qeyd etdiyim kimi, lider klublarında ortabab, autsayder olmaq şansı yoxdur. Məğlubiyyətləri sıralayaraq "mənə uzun müddət şans verilməlidir" düşüncəsi vaxt qazanmaqdan, manipulyasiyadan başqa bir şey deyil. Böyük klublarda rəhbər, məşqçi və futbolçuların bir şansı var: lider kluba liderliyini sübut etmək. Əks halda, deməli böyük kluba layiq deyillər.

Müxtəlif situasiyalar ola bilər. Azərbaycan futbolunda belə hallar çox yaşanıb. Sponsor-rəhbər-məşqçi-futbolçu ardıcıllığı ilə məşqçi və ya başqasının günahı olmadan problemlər yaşana bilər. İdeyalarını həyata keçirmək üçün obyektiv, subyektiv səbəblər təhlil olunmalı, sabahın qalibi olmaq üçün real, qətiyyətli addımlar atılmalıdır. Məğlubiyyətlərə bəhanələr gətirərək böyük məşqçi olmaq mümkün deyil.

Böyük klubları məhvə sürükləyib "bizə şans verilmədi" ifadəsindən fərqli olaraq "lider klublara layiq olmayanlara şans veril(ir)di" yanaşması daha doğrudur. Belə tələbkarlıq rəhbər, məşqçi və futbolçuların hər birinə aiddir. Lider klubları ayaqda saxlayacaq, daha da inkişaf etdirəcək qalibiyyət ruhlu liderlər olmalıdır!

"Göydən üç alma düşdü" nağıllarını ən yaxşı halda ikinci dərəcəli klublarda davam etdirmək olar. Aşağı düşə-düşə...

***Tahir Süleymanov, futbol mütəxəssisi***



## İdmanın maraqlı məqamları

*İdman həyat tərzidir. Həyat isə maraq və istəklər üzərində qurulub. Baş verənlər həyatımıza rəng qatır, yaşamaq üçün bizə güc verir.*

*"Olimpiya dünyası" qəzeti bu saydan etibarən "İdmanın maraqlı məqamları" rubrikası altında yazılara start verir. İdmanda baş verən maraqlı hadisələrdən bəhs edən yazılarda biz bu məqamlara, cavabı çətin olan suallara cavab tapmağa çalışacağıq. Hesab edirik ki, bu rubrika altında gedən yazılar oxucularımızın marağına səbəb olacaq.*

# Rəqəmlərin sehrinə düşənlər, fərqlənən keniyalılar, sürətli toplar və əlamətlərə inanan futbolçular

### Əbədiləşən "0", uğurlu "13" və bədbəxtlik gətirən "17"...




Çoxları yaxşı bilir ki, futbolun vətəni İngiltərədir. "Dumanlı Albionda" yaranan bu idman növü indi bütün dünyanı fəth edib. Futbol yarandığı gündən etibarən elə öz vətənində "ilk"lərlə yadda qaldı. Sonralar isə dünyanın hər yerində futbola yeniliklər və "ilk"lər daxil edildi.

1928-ci il 13 oktyabr. Bu tarix dünyada əlamətdar gün kimi xatırlanır. Belə ki, həmin gün ilk dəfə olaraq Londonun "Arsenal" və "Çelsi" klubları arasında keçirilən görüşdə ilk dəfə olaraq futbolçular meydançaya nömrəli idman köynəklərində çıxdılar.

Təxminən iki ildən sonra bütün klublar onlardan nümunə götürərək, bunu təkrarlamağa başladılar. 1950-ci ildə Braziliyada keçirilən dünya çempionatında iştirakçı komandaların futbolçularının hər birinin köynəyində nömrə var idi.

Artıq futbolçuların nömrələrinə baxan futbolçu bilirdi ki, qapıçı kimdir, hücumçu kimdir. Əsas heyət 1-dən 11-ə kimi nömrə altında çıxış edirdi. 12-də daxil olmaqla sonrakı rəqəmlərdə çıxış edən futbolçular isə ehtiyat oyunçular skamyasında oturub, əvəz olunmasını gözləyirdi.




Amma tezliklə qaydalar pozulmağa başladı. Bu qaydaları pozan ilk futbolçu isə hollandiyalı Yohan Kroyf oldu. Belə ki, görüşlərin birində o meydana 14 nömrəli formada çıxdı. Bu nömrə altında onun debütü uğurlu alındı. Kroyf sonrada 30 nömrəli futbol köynəyi altında da uğurlu nəticələr göstərməyə başladı.

Argentinanın yığma futbol komandası 1978-ci il Dünya çempionatı ərəfəsində nömrə seçiminə görə ortaq məxrəcə gələ bilmirdilər. Heyətdə nömrə üstündə "dava düşürdü".

Millinin məşqçi-futbolçusu Sezar Mennoti bu problemin həllinin asan yolunu tapdı. O, nömrələri əlifba sırası ilə bölüşdürdü. Nəticədə azarkeşlər dünya çempionatında yarımmüdafiəçi Norberto Alonsonu 1, qapıçı Ubaldo Filyolu 5, kapitan Daniel Passarellanı isə 19 nömrəli formada gördülər. Argentinalılar bu ənənəni növbəti çempionata qədər qoruyub saxladılar. Əfsanəvi futbolçu Maradona isə yalnız "10" nömrədən başqa nömrə altında çıxış etməyəcəyini israr etdi. Məcbur qalan komanda rəhbərliyi futbolçu ilə razılaşmalı oldular.

1999-cu ildə Şotlandiyanın "Aberdin" futbol komandasında yeni bir futbolçu çıxış etməyə başladı. "Zero" ləqəbi ilə tanınan mərakeşli Hişam Zeruali idi. Afrikalı futbolçu komandada "0" nömrəli futbol köynəyində çıxış etmək barədə tələb qoydu. "Aberdin" rəhbərliyi onun bu tələbinə etinasız yanaşmadı. Hər şey 5 il davam etdi. 2004-cü ildə Zeruali faciəli şəkildə avtomobil qəzasında həlak oldu. O, bu qeyri-adi nömrəni əbədi olaraq özü ilə apardı. Daha doğrusu ali futbol qurumu olan FİFA tərəfindən "0" nömrəli forma onun xatirəsinə görə əbədiləşdirildi. Moskvanın "Torpedo" futbolçuların heç biri 1 nömrəli forma ilə çıxış etməzdilər. Klub rəhbərliyinin fikrincə, bu nömrə əbədi olaraq azarkeşlərə məxsusdur. Rusiyanın digər klubu olan "Spartak"da isə 72 nömrəli köynəyin olması qeyri-mümkündür. Bu nömrə də klubun azarkeşlərinin nömrəsi sayılır. Çünki "Spartak" 1972-ci ildə yaranıb.

"İtaliya çempionatında futbolçular 17 nömrəli futbol köynəklərinə həvəzsiz yanaşırlar. Apenində bu nömrə bədbəxt nömrə hesab olunur. 13 nömrə isə əksinə, uğur və müvəffəqiyyət gətirən rəmzi bir nömrədir. Cənubi Amerika Futbol Konfederasiyasının nizamnaməsinə əsasən klublarda 1-dən 25-ə qədər futbol köynəkləri olmalıdır. FİFA-nın qanunlarına əsasən isə oyunçuların 1-dən 99-a qədər nömrələrdən istifadə etmək icazəsi var idi. Lakin bu işdə də bir nəfər fərqlənməli idi. Meksika Futbol Federasiyasının razılığı ilə "Yaquar" klubunun oyunçusu Adolf Bautist meydançaya 100 nömrə ilə çıxmışdı. Futbol tarixində daha böyük nömrələrlə də rast gəlmək olur.

1996/97-ci illərdə Monterrey şəhərində meksikalı oyunçu Xesus Arellano 400 nömrəli forması ilə yadda qaldı. Bunun bir açıqlaması və səbəbi var idi. O, vaxt Monterrey şəhərinin yaranmasının 400 illik yubileyi keçirilirdi. Elə buna görə də klubun lideri Xesus bir mövsümlük də olsa qeyri-adi nömrə ilə çıxış etməyə qərar vermişdi.

### Niyə bütün dünyada ən sürətli qaçanlar keniyalılardır?

Hesablamalara görə, 2010-cu ildə dünyada 156-dan artıq marafon yarışı keçirilib. Bunlardan 126-da Keniyanı təmsil edən idmançılar iştirak edib və qalib gəlib. Bu hələ son deyil. Maraqlıdır ki, qaliblər bu ölkədə yaşayan Kalençi qəbiləsinin təmsilçiləri olublar. Bu xalqın ümumi sayı təxminən 3,5 milyon nəfərdir. Əsas məşğuliyyətləri isə heyvandarlıqdır. Alimləri indi bir sual maraqlandırır. Necə olur ki, bu xalqın idmançıları bu qədər sürətli və dözümlüdürlər?

Bəziləri düşünürdü ki, bütün bunlar onların düzqamətli olduqlarına görədir. Onların nazik belləri və düz ayaqları qaçmaq üçün xarakterikdir. Digərləri isə düşünür ki, əsas şərt xarici görünüş deyil, həyat tərzidir. Heyvandarlıqla məşğul olduqları üçün bütün günü hərəkətdə olmaları əsas götürülür. Buna görə də dietoloqlar daha irəli gedərək, kalendcililərin qidalanmalarının sirrini araşdırmağa başladılar. Bərkqaçanlar arasında sorğu keçirildi. Onlar bildirdilər ki, heç bir qeyri-adi qidadan və yaxud pəhrizdən istifadə etmirlər. Onlar istədikləri vaxt, istədikləri kimi qidalanırlar. Ən sevimli yeməkləri isə qarğıdalı sıyığıdır. Nəzəriyəyə görə məlum olub ki, keniyalı idmançıların orqanizmi daha çox oksigenlə zəngindir. Kalendçi qəbiləsi dağlıq bölgədə, dəniz səviyyəsindən təxminən 2 min metr hündürlükdə yaşayır. Ümumi götürdükdə, Keniya dünyada çox hündür olmayan ən uzaq dağlıq ölkədir. XX əsrin sonunda kopenhagenli həkimlər təcrübə üçün keniyalı idmançıların əzələlərini yerli idmançılarla müqayisə etdilər.

Kalendçi tayfasının sadə yeniyetmələri bir neçə ay müntəzəm məşqlərdən sonra qaçışda böyük ara məsafəsiylə avropalı rəqiblərinə qalib gələ bildilər. Məlum oldu ki, Skandinaviya idmançıları afrikalılardan daha zəifdir. Halbuki avropalılar da marafon və qaçış yarışlarında onlarla rəqabətə girə bilirlər. Yekunda onlar belə qərara gəldilər ki, keniyalılar genetik qaçış üstünlüklərinə malikdirlər. Düz ayaqlar qaçışı ayrı-ayrılıqda enerjili və daha effektli edir. Hətta bəzi tədqiqatçılar kalendçi tayfasının idmançılarının üstünlükləri barədə araşdırmaları davam etdirdilər.

1968-ci və 1972-ci illərdə keçirilən Yay Olimpiya oyunlarında keniyalı idmançı Kip Keyno qalib gələrək, sübut etdi ki, qaçış ilk növbədə ağıl tələb edir. Beləliklə,



keniyalıların müvəffəqiyyətlərinin səbəbi barədə heç bir dəqiq fikir aşkarlanmadı. Göründüyü kimi, bu suala hələ ki, konkret cavab vermək mümkün deyil.




### İdman topları hansı sürətlə uçur?

İnanılmaz görünsə də, bir vaxtlar peşəkar badminton yarışlarında orta hədd sürəti təxminən 300 km/saat tətbiq olunmuşdu. Malayziyalı rekordçu Tan Bun Xanın zərbəsi volanın (badmiton topu) sürətini 493 km/saata çatdırdı. Qolf topundan bir az zəif olan volan təxminən 270 km/saat sürətlə uçur. Yüksək effekto malik olan elektrik qurğularının köməkliyi ilə ən maksimal sürət 326 km/saat hesablanıb. Avstraliyalı tennisçisi Sem Qroq topu 263 km/saat zərbə gücü ilə ötürə bilib. Qadınlar arasında keçirilən yarışda da maraqlı rəqəmlər qeydə alındı. Almaniyalı idmançı Sabina Lisiskinin zərbəsinin sürət göstəricisi 211 km/saat olub. Yeri gəlmişkən stolüstü tennis idman növü üçün nəzərdə tutulan şarın sürəti 180 km/saatdır. MHL-in əfsanəsi Bobbi Hillanın şaybasının uçuş zərbəsi 190 km/saat olub. Onun hazırlıqsız vurduğu şaybanı çox vaxt qapıçı görə bilmirdi.

Voleybol idman növü üzrə yüksək dərəcəli idmançının vurduğu topun sürəti 130 km/saatdır. Dünyada ən güclü zərbə bolqarıstanlı idmançısı Mateya Kazayskinin 132 km/saat sürətli zərbəsi idi. Çimərlik voleybolu üzrə təsdiq olunmuş rekordçu rusiyalı İqor Kolodinskidir. Onun zərbəsinin sürəti 114 km/saat olub. Həndbol idman növündə zərbə gücünün orta sürət həddi 100 km/saat olub. Həndbolda ən güclü idman ustası 120 km/saatdan çox nəticə göstərə bilib.

Məlumdur ki, nüvəitələmə nəticələri də fərqlidir. Məsələn, diskin təxmini sürəti 90 km/saatdır. Diskatma yarışlarında isə idmançılar diski çox aşağı - 50 km/saat sürətlə havaya atırlar.



Dünyada ən məşhur idman növü sayılan futbolu da diqqətdən kənarda saxlamaq olmaz. Futbolçular arasında ən bərk zərbəni vaxtilə "Zenit" futbol komandasının heyətində çıxış edən braziliyalı Halk vurub. Onun bu rekordu 2011-ci il sentyabr ayının 13-də "Porto"nun heyətində qeydə alınıb. Halk bu topu Çempionlar Liqası çərçivəsində keçirilən görüşdə "Şaxtyor"un qapısından keçirib. Texniki qurğuların hesablamasına görə, top qapıya 218 km/saat sürət ilə daxil olmuşdu. Futbolda qeydə alınan ikinci sürətli zərbə isə Almaniya millisinin keçmiş üzvü Lukas Podolskiyə məxsusdur - 202 km/saat.

### Futbolçular hansı əlamətlərə inanırdılar?

***"Əvvəl kofe, sonra oyun", "Papanın şəkili", butsuda 10 qəpik və qoroskop...***

Uğur gözəl hissdir. Uğurun qazanılması üçün bir sıra vasitələr var. Çoxu bunu görülən işdə, bəziləri isə "sınamalar"da görür. Əlamətlərə inanan futbolçular və məşqçilər yetərincə olub. Tanınmış sovet məşqçisi Valeriy Lobanovski 13 rəqəminə çox ehtiyatla yanaşırdı. Lobonovski Kiyevin "Dinamo" klubunda məşqçilik etdiyi dövrdə futbolçulardan heç kim bu nömrə ilə meydançaya çıxmırdı. Daha doğrusu heç bir futbolçu komandada həmin nömrəli köynəyi geymirdi. Kiyevli məşqçi dəst formaları seçərkən bütün cizgilərə diqqətlə nəzarət edirdi. Düzgün olmayanları zibil qutusuna atırdı. Rusiya yığmasında məşqçilik etmiş hollandiyalı məşqçi Quus Hiddinq qalstukun ilahi gücə malik olduğuna inanırdı. Əgər matçda onun komandası qalib gələrdisə, Hiddinq növbəti oyunda da eyni qalstuku taxırdı. Əks halda o, bu qalstukdan həmişəlik ayrılırdı.

Fransız məşqçi Raymon Domenek ulduz falına çox güvənirdi. Ona görə də hər bir futbolçunun qoroskopunu diqqətlə oxuyurdu.

Fransa yığma komandasının futbolçuları 1998-ci ildə Dünya çempionu olmasını təkcə uğurlu çıxışla deyil, həm də əlamətlərin onların xeyrinə olması ilə əlaqələndirirdilər. Komandanın kapitanı Loran Blan matçdan əvvəl qapıçı Bartezin başından öpürdü.

Matçdan əvvəl əfsanəvi hollandiyalı futbolçu Yohan Kroyf saqqızı rəqib komandanın tərəfinə tüpürürdü. 1969-cu ildə Çempionlar Liqasının finalında futbolçu öz ənənəsini unutdu. Ona doğma olan "Ayaks" İtaliyanın "Milan" komandasına 1:4 hesabı ilə uduzdu. "Şalke"nin qapıçısı Horbert Niqburq meydançaya cibində Roma Papasının şəkili ilə çıxırdı.

SSRİ-nin tanınmış qapıçısı Renat Dasayev almaniyalı həmkarı Harld Şumaxerin ona hədiyyə etdiyi əlcəklərini çox ciddi qoruyurdu. Düzdür, Rinat bu əlcəklərlə heç vaxt çıxış etmirdi. Amma oyunlarda əlcəkləri özüylə meydançaya gətirib, qapının yanında qoyardı.

1962-ci il Dünya çempionatında Çili yığma komandasının futbolçuları xüsusi həvəslə matça hazırlaşmışdılar. Oyunqabağı italiyalılar makaron yeyərdilər, isveçrəlilər isə pendir dadardılar. SSRİ komandası bir qədəh araq içirdilər. Çillilər təsdiq edirdilər ki, rəqibin qəlbini yalnız bu cür başa düşmək olar. Bu vəziyyət hətta uzun müddət komandaya kömək etmişdi. Komanda braziliyalılarla yarımfinalda görüşmək imkanı əldə edirlər. Bu dəfə çillilər "əvvəl kofe sonra isə oyun" deyən sambaçılara qalib gəldilər. Buradan belə çıxır ki, kofe Braziliya istehsalı deyilmiş.

90-cı ilin tanınmış ulduzu, bolqarıstanlı Xristo Stoiçkov oyun qabağı butsunun içinə 10 qəpiklik (nominal) qoyardı. Oyuna nə qədər kömək olduğunu demək çətin olsa da, Stoiçkov bir neçə qol vuraraq, komandasına qələbələr bəxş etmişdi.

Hətta psixoloqlar da təsdiq edirdilər ki, bu uğurlar futbolçuların öz cəhətlərinin sayəsi nəticəsində baş verir.

*Səhifəni hazırladı:*
*Anar Əhmədov*



# DÜNYA İDMANI



## Roje Federer ilin idmançısı seçilib

Australian Open və Uimbldon turnirinin qalibi Roje Federer tennis üzrə ilin idmançısı seçilib. İsveçrəli məşhur idmançı həm də "Böyük dəbilqə" seriyasından turnirin 19 qat çempionudur.

Roje Federer ilin idmançısı seçilməsinə övladlarının necə reaksiya verməsindən danışıb: "Tədbirə hazırlaşanda uşaqlarım məndən hara getdiyimi soruşdular. Onlara dedim ki, ilin yekunlarına görə mükafat verirlər. Mən də 1-ci yeri tutmuşam. Uşaqların reaksiyası belə oldu: "Rafa H1. Bu söz mənə zövq verdi".

Xatırladaq ki, 36 yaşlı Roje Federer və 31 yaşlı Rafael Nadal bu il "Böyük dəbilqə" və "Master" seriyalarından tirnirlərin qalibi olublar. Mövsümün nəticələrinə görə, isveçrəli tennisçi dünya reytinq siyahısında ispaniyalı həmkarını 1000 xal qabaqlayaraq 1-ci olub.

## Formula-1 yarışlarını izləyənlərin sayı artıb




2017-ci ildə Formula-1 yarışlarını izləyənlərin sayı 8 faiz artıb. Statistikaya görə, 20 ötmə yarışından 13-də tamaşaçı sayı daha çox olub. Kanada və Avstriyada keçirilən Qran-pri yarışlarını 60 min tamaşaçı izləyib. Azərbaycanda keçirilən Formula-1 yarışlarında isə ötən mövsümlə müqayisədə tamaşaçıların sayı ikiqat artıb.

Bu il qran-pri yarışlarında stabil tamaşaçı sayı Böyük Britaniyada qeydə alınıb -344 500 nəfər. Ən aşağı göstərici isə ABŞ Qran-prisində (Ostində) olub. Burda ötən mövsümlə müqayisədə 11 889 nəfər tamaşaçı az iştirak edib.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*

**(*"Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən*)**

## "Real" klublararası dünya çempionatının qalibi olub

"Real Madrid" komandası FİFA-nın təşkil etdiyi klublararası dünya çempionatının qalibi olub.

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidəki "Zayed Sports City" stadionunda oynanılan final qarşılaşmasında UEFA Çempionlar Liqasının sonuncu qalibi olan "Real" Cənubi Amerika Futbol Konfederasiyasının (CONMEBOL) Libertadores kubokunun sahibi "Qremio" (Braziliya) ilə üz-üzə gəlib.

Qarşılıqlı hücumlar şəraitində keçən oyunda yeganə qolu "Real"ın portuqaliyalı ulduz futbolçusu Kriştianu Ronaldo vurub. Ulduz futbolçu matçın 53-cü dəqiqəsində cərimə zərbəsini dəqiq yerinə yetirərək oyunun taleyini həll edib.

Bu, "Real"ın üçüncü çempionluğudur. Bundan əvvəl 2014-cü və 2016-cı illərdə də turnirin qalibi olan madridlilər bu yarışda ən çox çempion olan əzəli rəqibləri "Barselona"nın rekordunu təkrarlayıb. "Real" bu kuboku ardıcıl iki dəfə əldə edən ilk komanda kimi tarixə düşüb.

Turnirin ən məhsuldar futbolçusu 7 qolla Kriştianu Ronaldo olub.




Qeyd edək ki, Ronaldo vergidən yayındığına görə məhkəməyə verilib. İddiaya görə, Ronaldonun dövlətə 14 milyondan artıq vergi borcu var. Məhkəmə ilkin dindirmədə futbolçuya 30 milyon avro dəyərində cərimə qərarı çıxarıb. Ronaldo isə günahsız olduğunu bildirərək razlaşma əldə etmək təklifini rədd edib. Futbolçunun vəkili də müvəkkilini müdafiə edib.

Məhkəmə prosesinin ikinci mərhələsi dekabrın 22-də keçiriləcək. İddianın sübuta yetirildiyi təqdirdə Ronaldo 30 milyon dollar məbləğində cərimə ödəmək məcburiyyətində qalacaq.

## Mourinyo qapıçının başına qab çırpdı

İngiltərə Premyer Liqasının XVI turunda baş tutan "Mançester Yunayted" - "Mançester Siti" oyunundan sonra qalmaqal baş verib. Meydan sahibləri "şəhərlilər"in qələbəni çılğınlıqla qeyd etməsini qəbul edə bilməyiblər. Qonaq komandanın paltardəyişmə otağına yaxınlaşan Joze Mourinyo onları sakitləşdirmək istəyib. Bundan sonra portuqaliyalı mütəxəssislə rəqibin qapıçısı Ederson arasında mübahisə baş verib. Əsəblərinə hakim ola bilməyən Mourinyo qapıçının başına plastik qab çırpıb. Ardınca iki komandanın üzvləri arasında kütləvi dava olub.

## Messi nəyi unuda bilmir?

Argentina yığmasının hüçumsu Lionel Messi ölkəsinin 2014-cü il dünya çempionatında uğursuzluğunu undiyə qədər unuda bilmədiyini deyib. Qeyd edək ki, həmin çempionatda Argentina yığması Almaniya komandasına 0:1 hesabı ilə uduzub.

"Çox acıdır. Bilmirəm, nə vaxtsa, bu yara qaysaq bağlayacaqmı? 2014-cü ildə Braziliyada baş verənlər həmişəlik xatirimdə acı xatirə kimi qalacaq və məni incidəcək.

Eşitmişəm ki, Sampaoli (Argentina yığmasının baş məşqçisi) deyib: "Futbol dünya kubokunu mənə borc olaraq verib. İnanıram ki, futbol həmin kuboku yenə mənə qaytaracaq".

## Viktorina

Ölkəmizdə idmanın, Olimpiya Hərəkatının inkişafı və təbliğində özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" qəzeti fəaliyyətinin ilk günlərindən başlayaraq müxtəlif layihələr həyata keçirir. Bu layihələrdən biri də çoxsaylı oxucularımız arasında maraqlı viktorinaların təşkilidir. Məlumat üçün bildiririk ki, viktorinaya hər ayın sonunda yekun vurulacaq, qaliblər redaksiyaya dəvət olunaraq müxtəlif hədiyyələrlə mükafatlandırılacaq və "Olimpiya dünyası" qəzetinə 1 illik pulsuz abunə olunacaqlar.



Diqqət...Diqqət.

Oxucularımıza hər dəfə 5 suala cavab tapmalıdırlar.

Hər doğru cavab 1 balla qiymətləndiriləcək. Cavabları aşağıda göstərilən ünvana və ya elektron poçta göndərə bilərsiniz.

**Ünvan:** *Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a (Metronun "Gənclik" stansiyasının yaxınlığında)*

**E-mail:** olimpiya_dunyasi@mail.ru

*Əlaqə telefonları: (012) 564-74-19; 564-90-49; 564-90-54*

| Suallar | Cavablar |
|---|---|
| **1. 20 mövsüm eyni komandada oynayan məşhur basketbolçu kimdir?** | |
| **2. Antik və müasir Olimpiya stadionlarını biri-birindən fərqləndirən cəhət hansıdır?** | |
| **3. Seul-1988 Olimpiya Oyunlarında baş verən hansı hadisə heyvansevərləri BOK-a məktub yazmağa vadar etmişdi?** | |
| **4. İlk dəfə dopinq əleyhinə testlər hansı olimpiadada sınaqdan keçirilib?** | |
| **5. BOK-un vitse-prezidenti olan ilk qadın nümayəndə kimdir?** | |

## Maykl Cordan oyunçularla görüşüb

"Şarlott" komandasının rəhbəri, tanınmış basketbolçu Maykl Cordan oyunçularla görüşüb. Görüş komandanın "Leykers"lə oyunundan bir gün əvvəl baş tutub. "Şarlott"un forvardı Marvin Uilyamsın sözlərinə görə, Maykl Cordan basketbolçularla çox səmimi söhbət edib və onların fikirlərini öyrənib: "Bu görüş, bizim üçün çox qiymətli və vacib idi".

## "O bizim adamdır"

5 çəki dərəcəsində keçmiş dünya çempionu Floyd Meyvezer Çeçenistan Respublikasının prezidenti Ramzan Kadırovla görüşüb. Görüşdən razı qalan dünya şöhrətli boksçu deyib: "Rusiyada səfərdə olarkən Ramzan Kadırovla görüşdüm və biz boks haqqında danışdıq. O bizim adamdır, gözəl insandır".

Məlumat üçün bildirək ki, Floyd Meyvezer əvvəllər Rusiya vətəndaşlığı almaq fikrində olub.

---

Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi iş yoldaşları Kamran Qasımova, anası

**Sabirə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

Futbol Üzrə İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatı Məktəbinin direktoru Kazbek Tuayev və məktəbin kollektivi Kamran Qasımova, anası

**Sabirə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

"Olimpiya dünyası" qəzetinin kollektivi Kamran Qasımova, anası

**Sabirə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

**Baş redaktor: M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.**

***E-mail:*** **olimpiya_dunyasi@mail.ru**
***Ünvan:*** **Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**